115 Aşağıda göstərilənlərdən hansılar vergi orqanlarının vəzifələrinə aiddir? 1. vergilərin düzgün hesablanmasına, tam və vaxtında ödənilməsinə nəzarət etmək vergi qanunvericiliyinə tam və dəqiq riayət etmək; 2. vergi qanunvericiliyi və vergi qanunvericiliyində edilən dəyişikliklər barədə vergi ödəyicilərinə kütləvi informasiya vasitələri ilə və ya fərdi qaydada əvəzsiz olaraq məlumat vermək, müəyyən edilmiş hesabat formalarının doldurulması qaydalarını izah etmək, vergilərin hesablanması və ödənilməsi barədə izahatlar vermək, vergi ödəyicilərinə onların hüquq və vəzifələrini izah etmək; 3. iri vergi ödəyicilərinin nizamnamə fondunun artmasına və azalmasına nəzarət etmək; 4. kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatını və dövlət reyestrini aparmaq və bununla bağlı məlumatları qanunvericiliklə müəyyən edilmiş qaydada və müddətlərdə müvafiq icra hakimiyyəti orqanlarına göndərmək; 5. dövlət maliyyə orqanlarının fəaliyyətinə nəzarəti həyata keçirmək.

- ○ 3, 4, 5
- ◉ 1, 2, 4
- ○ 2, 4, 5
- ○ 1, 2, 3
- ○ 1, 3, 5

116 Aşağıdakılardan hansılar vergi orqanlarının vəzifələrinə aiddir? 1. vergilərin düzgün hesablanmasına, tam və vaxtında ödənilməsinə nəzarət etmək vergi qanunvericiliyinə tam və dəqiq riayət etmək; 2. dövlət maliyyə orqanlarının fəaliyyətinə nəzarəti həyata keçirmək; 3. vergi ödəyicilərinin, onların filiallarının, nümayəndəliklərinin və ya digər təsərrüfat subyektlərinin [obyektlərinin], habelə nəzarət-kassa aparatlarının uçotunu aparmaq; 4. fiziki şəxslərin yaşayış sahələrinə daxil olmaq və əmlakın inventarizasiyasını aparmaq; 5. vergi ödəyicilərinin hüquqlarını və qanuni mənafelərini gözləmək və müdafiə etmək.

- ○ 2, 4, 5
- ◉ 1, 3, 5

- ◯ 1, 2, 5
- ◯ 1, 2, 4
- ◯ 3, 4, 5

117 Aşağıdakılardan hansılar vergi orqanlarının hüquqlarına aiddir? 1. müəyyən edilmiş müddətlərdə ödənilməmiş vergilərin, faizlərin, maliyyə sanksiyalarının və inzibati cərimələrin qanunla müəyyən edilmiş qaydada dövlət büdcəsinə ödənilməsini təmin etmək; 2. "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş hallarda və qaydada vətəndaşların vergi məsələləri ilə bağlı sorğusunu həyata keçirtmək; 3. vergi ödəyicisinin audit yoxlamasından keçməsini tələb etmək; 4. Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada və hallarda kameral və səyyar vergi yoxlamalarını, operativ vergi nəzarətini keçirmək; 5. hüquqi şəxslərin yaşayış sahələrindəki əmlakının inventarizasiyasını aparmaq.

- ◯ 1, 3, 5
- ◉ 1, 2, 4
- ◯ 2, 3, 4
- ◯ 1, 2, 5
- ◯ 3, 4, 5

118 Aşağıdakılardan hansılar daimi nümayəndəliyi əhatə edir? 1. tikinti və təmir meydançaları, quraşdırma və ya yığma obyektləri, həmçinin bu cür obyektlərlə bağlı nəzarət fəaliyyət göstərilməsini; 2. rezident şəxs tərəfindən Azərbaycan Respublikası ərazisində digər sahibkarlıq növlərinin həyata keçirildiyi istənilən hər hansı iş yerlərini; 3. müxtəlif məsləhət xidməti üzrə yerlərini; 4. filialı və agentliyi; 5. rezident fiziki şəxsin sahibkarlıq fəaliyyəti üçün istifadə etdiyi bazanı [yeri].

- ◯ 1, 3, 5
- ◉ 1, 3, 4
- ◯ 2, 3, 4
- ◯ 2, 4, 5
- ◯ 1, 2, 3

119 Aşağıda göstərilənlərdən hansı vergi ödəyicisinin vəzifəsinə aiddir?

- ◯ vergi münasibətlərində bilavasitə və ya öz nümayəndəsi vasitəsi ilə iştirak etmək
- ◉ sahibkarlıq fəaliyyəti məqsədləri üçün qeyri-rezident bank idarələrində və digər qeyri-rezident kredit təşkilatlarında hesabların açılması üçün vergi orqanlarından alınmış şəhadətnamə-dublikatların bildiriş hissəsində müvafiq qeydlər etməklə bu hesablar üzrə əməliyyatlar aparıldığı tarixədək vergi orqanına təqdim etmək
- ◯ xronometraj metodu ilə aparılan sonuncu müşahidədən sonra istehsal həcminin və satış dövriyyəsinin dəyişməsi ilə əlaqədar xronometraj metodu ilə yeni müşahidənin aparılmasını vergi orqanlarından tələb etmək
- ◯ artıq ödənilmiş və ya artıq tutulmuş vergilərin vaxtında geri qaytarılmasını və ya əvəzləşdirilməsini tələb etmək
- ◯ qanunvericiliklə müəyyən edilmiş qaydada kommersiya [vergi] sirrinin qorunmasını tələb etmək

120 Vergi ödəyiciləri aşağıda göstərilən hansı fəaliyyət növləri istisna olmaqla, nağd pul hesablaşmalarını nəzarət-kassa aparatları vasitəsilə həyata keçirməlidirlər? 1. işçilərinin sayı 2 nəfərdən çox olmayaraq həyata keçirilən nəqliyyat vasitələrinə texniki və digər xidmətlər göstərilməsi fəaliyyəti; 2. ixtisaslaşdırılmış mağazalarda bitki toxumlarının satışı fəaliyyəti; 3. işçilərinin sayı 2 nəfərdən çox olmayaraq həyata keçirilən zərgərlik və metal məmulatlarının təmiri və hazırlanması fəaliyyəti; 4. işçilərinin sayı 2 nəfərdən çox olmayaraq həyata keçirilən bərbər xidməti fəaliyyəti; 5. müəssisə və təşkilatlarda ictimai-iaşə fəaliyyəti.

- ◯ 2, 3, 4
- ◉ 1, 3, 4
- ◯ 3, 4, 5
- ◯ 1, 2, 4
- ◯ 1, 2, 5

121 Aşağıdakı hansı fəaliyyət növləri üzrə nağd pul hesablaşmalarının aparılması nəzarət-kassa aparatları vasitəsilə həyata keçirilməyə bilər? 1. mehmanxana, motel, kempinq və yataqxana xidmətləri fəaliyyəti; 2. avtomobil dayanacaqlarının fəaliyyəti; 3. işçilərin sayı üç nəfərdən az olan apteklərdə dərman satışı fəaliyyəti; 4. orta məktəblərdə ticarət fəaliyyəti; 5. cildləmə xidməti fəaliyyəti.

- 1, 2, 3, 4
- ● 1, 2, 5
- 1, 2, 4
- 1, 3, 5
- 3, 4, 5

122 Aşağıda göstərilən hansı fəaliyyət növləri üzrə nağd pul hesablaşmalarının aparılması nəzarət-kassa aparatları vasitəsilə həyata keçirilməyə bilər? 1. səhiyyə xidməti fəaliyyəti; 2. avtomobil dayanacaqlarının fəaliyyəti; 3. xırda topdansatış ticarət fəaliyyəti; 4. kanalizasiya və sanitar təmizləmə xidməti fəaliyyəti; 5. çimərliklərdə müvəqqəti ticarət fəaliyyəti.

- ● 1, 2, 4
- 1, 3, 5
- 1, 4, 5
- 1, 2, 5
- 3, 4, 5

123 Aşağıda göstərilən hansı fəaliyyət növləri üzrə nağd pul hesablaşmalarının aparılması nəzarət-kassa aparatları vasitəsilə həyata keçirilməyə bilər? 1. Dağ rayonlarında baytarlıq apteklərində dərman satışı; 2. Qocalar və kimsəsizlər evlərinin ərazisində ticarət fəaliyyəti; 3. Qiymətli kağızların satışı; 4. Sərnişin və yük daşıma [dəmir yolu, hava, su və avtomobil nəqliyyatı vasitəsilə] fəaliyyəti [oturacaq yerlərinin sayı 6-dan az olan qanunvericiliyə uyğun olaraq taksometr tətbiq edilməli taksilərdən başqa]; 5. Kənd təsərrüfatı məhsullarının bazarlarda, yarmarkalarda və səyyar qaydada satışı.

- 1, 2, 5
- ● 3, 4, 5
- 1, 2, 4
- 1, 3, 5
- 1, 2, 5

124 Aşağıda göstərilən hansı fəaliyyət növləri üzrə nağd pul hesablaşmalarının aparılması nəzarət-kassa aparatları vasitəsilə həyata keçirilməyə bilər? 1. Dekorativ bitkilərin və bəzək ağaclarının satışı; 2. Poçt məntəqələrinin fəaliyyəti; 3. Qiymətli kağızların satışı; 4. Sərnişin və yük daşıma [dəmir yolu, hava, su və avtomobil nəqliyyatı vasitəsilə] fəaliyyəti [oturacaq yerlərinin sayı 6-dan az olan qanunvericiliyə uyğun olaraq taksometr tətbiq edilməli taksilərdən başqa]; 5. Dövlət orqanlarında və Nazirliklərdə ictimai-iaşə fəaliyyəti.

- 1, 3, 4
- ● 2, 3, 4
- 3, 4, 5
- 1, 3, 5
- 1, 2, 5

125 Aşağıda göstərilən hansı fəaliyyət növləri üzrə nağd pul hesablaşmalarının aparılması nəzarət-kassa aparatları vasitəsilə həyata keçirilməyə bilər? 1. Şüşə qablar və dəmir tullantılarının qəbul məntəqələrinin fəaliyyəti; 2. İxtisaslaşdırılmış mağazalarda bitki toxumlarının satışı; 3. Qiymətli kağızların satışı; 4. Sərnişin və yük daşıma [dəmir yolu, hava, su və avtomobil nəqliyyatı vasitəsilə] fəaliyyəti [oturacaq yerlərinin sayı 6-dan az olan qanunvericiliyə uyğun olaraq taksometr tətbiq edilməli taksilərdən başqa]; 5. Müəssisə və təşkilatlarda ictimai-iaşə fəaliyyəti.

- 2, 3, 4
- ● 1, 3, 4
- 3, 4, 5
- 1, 2, 4
- 1, 2, 5

126 Aşağıda göstərilən hansı fəaliyyət növləri üzrə nağd pul hesablaşmalarının aparılması nəzarət-kassa aparatları vasitəsilə həyata keçirilməyə bilər? 1. Şüşə qablar və dəmir tullantılarının qəbul məntəqələrinin fəaliyyəti; 2. Poçt məntəqələrinin fəaliyyəti; 3. İşçilərin sayı bir nəfər olan aptekdə dərman satışı; 4. Orta

məktəblərdə ticarət fəaliyyəti; 5. Kənd təsərrüfatı məhsullarının bazarlarda, yarmarkalarda və səyyar qaydada satışı.

- 2, 3, 4
- 1, 2, 5
- 1, 2, 4
- 1, 3, 5
- 3, 4, 5

127 Aşağıda göstərilən hansı fəaliyyət növləri üzrə nağd pul hesablaşmalarının aparılması nəzarət-kassa aparatları vasitəsilə həyata keçirilməyə bilər? 1. Qəzet və jurnalların satışı [belə satış dövriyyəsinin ümumi dövriyyədəki payı 50 faizdən çox olduqda]; 2. Qiymətli kağızların satışı; 3. Xırda topdansatış ticarət; 4. Sərnişin və yük daşıma [dəmir yolu, hava, su və avtomobil nəqliyyatı vasitəsilə] fəaliyyəti [oturacaq yerlərinin sayı 6-dan az olan qanunvericiliyə uyğun olaraq taksometr tətbiq edilməli taksilərdən başqa]; 5. Çimərliklərdə müvəqqəti ticarət fəaliyyəti.

- 1, 2, 3
- 1, 2, 4
- 3, 4, 5
- 1, 3, 5
- 1, 2, 5

128 Kommersiya hüquqi şəxsləri, habelə xarici kommersiya hüquqi şəxsinin nümayəndəlik və filialları hansı dövlət orqanında qeydiyyata alınırlar?

- İqtisadiyyat və Sənaye Nazirliyində
- Vergilər Nazirliyində
- Ədliyyə Nazirliyində
- Maliyyə Nazirliyində
- Dövlət Gömrük Komitəsində

129 Hansı halda vergi orqanlarının vəzifəli şəxslərinin vergi ödəyicilərinə münasibətdə öz xidməti vəzifələrini həyata keçirmək yolverilməzdir?

- Belə bir məhdudiyyət nəzərdə tutulmamışdır
- həmin şəxslərlə vergi ödəyiciləri arasındakı münasibətlər ailə üzvlərinin münasibətləri olduqda
- həmin şəxslərlə vergi ödəyiciləri arasındakı münasibətlər şəxsi tanışlıq xarakteri daşımadıqda
- həmin şəxslərlə vergi ödəyiciləri arasındakı münasibətlər dostluq münasibətləri olmadıqda
- vergi orqanının vəzifəli şəxslərinin vergi ödəyicilərinin fəaliyyətində maliyyə marağı olmadıqda

130 Kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatını və dövlət reyestrini aparmaq və bununla bağlı məlumatları qanunvericiliklə müəyyən edilmiş qaydada və müddətlərdə müvafiq icra hakimiyyəti orqanlarına göndərmək vergi orqanlarının vəzifələrinə aiddirmi?

- yalnız ASAN xidmət mərkəzlərinin vəzifələrinə aiddir
- aiddir
- Ədliyyə orqanlarının vəzifələrinə aiddir
- aid deyil
- Məhkəmə orqanlarının müvafiq qərarı olduqda aiddir

131 Yuxarı vergi orqanları tabeliyində olan vergi orqanlarının və onların vəzifəli şəxslərinin qeyri-qanuni aktlarını və qərarlarını ləğv edə bilərlərmi?

- yuxarı vergi orqanı məhkəməyə müraciət edir və yalnız məhkəmənin qanuni qüvvəyə minmiş qərarından sonra ləğv edə bilər
- ləğv edə bilərlər
- qeyri-qanuni aktı və qərarı qəbul etmiş vəzifəli şəxsi cəzalandıra bilər, lakin akt və qərarı ləğv edə bilməz
- ləğv edə bilməzlər
- yalnız qismən ləğv edə bilər

132 “Əməliyyat-axtarış fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş hallarda və qaydada vətəndaşların vergi məsələləri ilə bağlı sorğusunun həyata keçirilməsi vergi orqanlarının hüquqlarına aiddirmi?

- yalnız vətəndaşın razılığı olduqda
- aiddir
- ancaq məhkəmənin qərarı olduğu halda
- yalnız yuxarı orqanların tələbi olduğu halda
- aid deyil

133 Xidməti fəaliyyətlə əlaqədar vergi orqanının işçisinin və ya onun ailə üzvlərinin əmlakına dəymiş zərər hansı vəsait hesabına ödənilir?

- həm dövlət büdcəsinin, həm də vergi orqanlarının büdcədənkənar fondunun vəsaiti hesabına
- sonradan təqsirkar şəxsdən tutulmaqla tam həcmdə dövlət büdcəsinin vəsaiti hesabına
- həmkarlar təşkilatının vəsaitləri hesabına
- vergi orqanlarının büdcədənkənar fondunun vəsaiti hesabına
- yerli [bələdiyyə] büdcəsinin vəsaiti hesabına

134 Azərbaycan Respublikasında dövlət vergi orqanlarını hansı orqanlar təşkil edir?

- vergi və gömrük orqanları
- müvafiq icra hakimiyyəti orqanı və bilavasitə ona tabe olan vergi orqanları
- yalnız vergi orqanları
- müvafiq icra hakimiyyəti orqanı və maliyyə orqanları
- yalnız müvafiq icra hakimiyyəti orqanları

135 Vergitutma məqsədləri üçün qeyri-rezident müəssisəsinin və ya qeyri-rezident fiziki şəxsin istənilən 12 ay ərzində üst-üstə 90 gündən az müddətdə Azərbaycan Respublikasında fəaliyyət göstərdiyi hər hansı yer daimi nümayəndəlik sayılmadıqda, bu halda Azərbaycan mənbəyindən əldə olunan gəlirdən hansı qaydada vergi tutulur?

- Vergi Məcəlləsinə uyğun olaraq bəyannamə üzrə vergiyə cəlb olunur
- Vergi Məcəlləsinə uyğun olaraq bildiriş üzrə vergiyə cəlb olunur
- Vergi Məcəlləsinə uyğun olaraq müstəsna hallarda bu gəlirlər vergiyə cəlb olunur
- Vergi Məcəlləsinə əsasən ödəniş mənbəyində vergiyə cəlb edilir
- bu gəlirlərdən vergi tutulmur

136 Azərbaycan Respublikasında qeyri-rezident hüquqi şəxsin və ya qeyri-rezident fiziki şəxsin daimi nümayəndəliyi istənilən 12 ay ərzində Azərbaycan Respublikasındakı fəaliyyəti üst-üstə neçə gündən az olmadıqda daimi nümayəndəlik vasitəsi ilə həyata keçirilən fəaliyyət sayılır?

- 45 gün
- 90 gündən
- 60 gündən
- 183 gündən
- 30 gündən

137 Vergitutma məqsədləri üçün bir şəxsin digər şəxsin əmlakında bilavasitə və ya dolayısı iştirak payı və ya səs hüququ neçə faizdən az olmadıqda, bu şəxslər qarşılıqlı surətdə asılı olan şəxslər sayılırlar?

- 25 faiz
- 20 faiz
- 10 faiz
- 15 faiz
- 5 faiz

138 Kimlər vergi agenti hesab olunur?

- ○ özəl vergi xidməti fəaliyyəti ilə məşğul olan şəxslər
- ● vergi ödəyicisinin vergisini hesablamağa, onu vergi ödəyicisindən tutmağa və təyinatı üzrə köçürməyə borclu olan şəxslər
- ○ vergi ödəyicisinin ailə üzvləri
- ○ vergi ödəyicisinin kommersiya sirrini bilən şəxslər
- ○ vergi ödəyicilərinin fəaliyyətini izləyən xüsusi şəxslər

139 Vergi ödəyicisinin hesabat dövründə sahibkarlıq və ya digər vergi tutulan əməliyyatı olmadığı halda, vergi hesabatının əvəzinə vergi orqanına təqdim etdiyi arayış nə vaxt qüvvəsini itirir?

- ○ arayışın təqdim edildiyi gündən 1 il keçdikdən sonra
- ● vergi hesabatlarının verilməsi üzrə öhdəlik yarandığı gündən
- ○ arayışın təqdim edildiyi gündən
- ○ vergi hesabatlarının verilməsi üzrə öhdəlik yarandıqdan 3 gün sonra
- ○ vergi hesabatlarının verilməsi üzrə öhdəlik başa çatdığı gündən

140 Aşağıdakılardan hansı vergi orqanlarının hüquqlarına aid deyildir?

- ○ qanunla müəyyən edilmiş qaydada vergi qanunvericiliyinin pozulması ilə bağlı işlərə baxmaq, hüquqi və fiziki şəxslərin vergi borclarına faizlər hesablamaq, bu şəxslərə maliyyə sanksiyaları və inzibati cərimələr tətbiq etmək
- ● vergi orqanlarında müəyyən edilmiş qaydada qeydiyyatdan keçirilməsi üçün nəzarət-kassa aparatının müəyyən olunmuş modelini sifariş vermək
- ○ vergi ödəyicilərindən vergi qanunvericiliyinin pozulması hallarının aradan qaldırılmasını, habelə vergi ödəyicisi auditor tərəfindən yoxlanılmalı olduğu halda auditor rəyini tələb etmək
- ○ Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada və hallarda kameral və səyyar vergi yoxlamalarını, operativ vergi nəzarətini keçirmək
- ○ müəyyən edilmiş müddətlərdə ödənilməmiş vergilərin, faizlərin, maliyyə sanksiyalarının və inzibati cərimələrin qanunla müəyyən edilmiş qaydada dövlət büdcəsinə ödənilməsini təmin etmək

141 Aşağıdakılardan hansı vergi ödəyicilərinin hüquqlarına aiddir?

- ○ qanunvericiliklə müəyyən edilmiş müddətdə mühasibat sənədlərinin və vergilərin hesablanması və ödənilməsi üçün zəruri olan digər sənədlərin, habelə
- ● vergi orqanlarında müəyyən edilmiş qaydada qeydiyyatdan keçirilməsi üçün nəzarət-kassa aparatının müəyyən olunmuş modelini sifariş vermək
- ○ Vergi Məcəlləsi ilə müəyyən edilmiş hallarda və qaydada vergi orqanlarına və onların vəzifəli şəxslərinə zəruri olan məlumatları və sənədləri təqdim etmək
- ○ qanunvericiliklə nəzərdə tutulmuş qaydada gəlirlərinin [xərclərinin] və vergitutma obyektlərinin uçotunu aparmaq
- ○ vergi orqanlarından vergi ödəyicisinin eyniləşdirmə nömrəsini [VÖEN] almaq

142 Bəyannamə verməli olan rezident fiziki şəxslər harada uçota alınırlar?

- ○ faktiki fəaliyyət göstərdikləri yer üzrə
- ● yaşadıqları yer üzrə vergi orqanlarında uçota alınırlar
- ○ uçota alınmırlar
- ○ gəlirin əldə edildiyi yer üzrə uçota alınırlar
- ○ istənilən vergi orqanında uçota alınırlar

143 Vergiyə cəlb olunan gəliri Azərbaycan mənbəyindən olan və bu gəlirdən ödəmə yerində vergi tutulmayan qeyri-rezidentlər harada uçota alınırlar?

- ○ olduqları yer üzrə
- ● Azərbaycan mənbəyindən gəlirin alındığı yer üzrə uçota alınırlar
- ○ istənilən vergi orqanında uçota alınırlar
- ○ uçota alınmırlar
- ○ ancaq rezidenti olduğu ölkədə uçota alınırlar

144 Yerli vergilərin hesablanmasına, tam və vaxtında ödənilməsinə nəzarət hansı orqan tərəfindən həyata keçirilir?

- ○ icra hakimiyyəti orqanları

- ◉ bələdiyyələrin vergi xidməti orqanı
- ○ bələdiyyənin yerləşdiyi ərazinin maliyyə orqanı
- ○ bələdiyyə ərazisindəki vergi orqanı
- ○ bələdiyyənin yerləşdiyi ərazinin maliyyə və vergi orqanı

145 Vergi nəzarəti hansı məqsədlə həyata keçirilir?

- ○ qanunsuz sahibkarlıq fəaliyyətinin qarşısını almaq
- ◉ vergilərin tam və vaxtında yığılmasını təmin etmək
- ○ vergi ödəyicisinin obyektinin fəaliyyətini dayandırmaq
- ○ vergi ödəyicilərini məsuliyyətə cəlb etmək
- ○ vergi ödəyicisinin digər təsərrüfat subyektləri ilə qarşılıqlı əlaqəsini müəyyən etmək

146 Vergi ödəyicisinə aid məlumat hansı halda digər şəxsə verilə bilər?

- ○ vergi ödəyicisinin şifahi icazəsi ilə
- ◉ vergi ödəyicisinin yazılı icazəsi ilə
- ○ bütün hallarda verilə bilər
- ○ heç bir halda verilə bilməz
- ○ vergi orqanının qərarı ilə

147 Vergi orqanlarının vəzifəli şəxslərinin aşağıda göstərilən fəaliyyət növlərindən hansı ilə məşğul olmağa ixtiyarı yoxdur?

- ○ belə bir məhdudiyyət nəzərdə tutulmamışdır
- ○ pedaqoji
- ○ elmi
- ◉ məsləhətçi
- ○ yaradıcılıq

148 Gömrük orqanları vergitutma ilə əlaqədar onlarda olan məlumatı hansı orqana verməlidirlər?

- ○ Nazirlər Kabinetinə
- ○ İqtisadiyyat və Sənaye Nazirliyinə
- ○ Maliyyə Nazirliyinə
- ◉ Vergilər Nazirliyinə
- ○ Dövlət Statistika Komitəsinə

149 Vergi orqanının işçisinə xidməti fəaliyyəti həyata keçirdiyi zaman peşə fəaliyyəti ilə məşğul olmağa imkan verməyən ağır bədən xəsarəti yetirildikdə, ona dövlət büdcəsinin vəsaiti hesabına hansı məbləğ ödənilir?

- ○ əmək haqqısının 10 misli miqdarında birdəfəlik müavinət ödənilir
- ○ birdəfəlik 500 min manat pul vəsaiti ödənilir
- ○ yalnız vəzifə maaşı
- ○ adi qaydada pensiya hesablanır
- ◉ vəzifə maaşı ilə pensiyası arasındakı fərq

150 Dövlət vergi orqanlarının işçilərinin icbari qaydada sığorta olunmaları hansı vəsait hesabına həyata keçirilir?

- ○ vergi orqanlarında yaradılmış xüsusi fond hesabına
- ○ vergi orqanı işçilərinin öz vəsaitləri hesabına
- ○ həm dövlət büdcəsinin, həm də vergi orqanı işçilərinin öz vəsaitləri hesabına
- ○ vergi orqanlarının işçiləri sığorta olunmurlar
- ◉ dövlət büdcəsinin vəsaiti hesabına

151 Vergi orqanlarının fəaliyyətinin hüquqi əsaslarını hansı qanunvericilik aktları təşkil edir?

- yalnız Nazirlər Kabinetinin müvafiq Sərəncam və Qərarları
- yalnız Vergi Məcəlləsi
- yalnız Vergi Məcəlləsi və onlara uyğun olaraq qəbul edilmiş qanunvericilik aktları
- Azərbaycan Respublikasının Konstitusiyası, Vergi Məcəlləsi və onlara uyğun olaraq qəbul edilmiş qanunvericilik aktları
- ancaq Azərbaycan Respublikasının Milli Məclisində qəbul edilmiş qanunvericilik aktları

152 İdxal-ixrac əməliyyatları zamanı vergilərin tam və vaxtında ödənilməsinə nəzarəti hansı orqan həyata keçirir?

- Dövlət Sərhəd Xidməti
- Maliyyə Nazirliyi
- Vergilər Nazirliyi
- Dövlət Gömrük Komitəsi
- Nazirlər Kabineti

153 Vergi orqanları məhkəmələrə iddia ərizələrinin verilməsi üçün dövlət rüsumunu hansı miqdarda ödəyirlər?

- dövlət rüsumunu ödəməkdən azaddırlar
- iddia məbləğinin 10%-i məbləğində
- iddia məbləğinin 15%-i məbləğində
- iddia məbləğinin 5%-i məbləğində
- iddia məbləğinin 20%-i məbləğində

154 Vergi orqanları tərəfindən onların səlahiyyətləri daxilində qəbul edilən qərarlar bütün hüquqi və fiziki şəxslər üçün məcburidirmi?

- məcburi deyil
- yalnız məhkəmənin qərarı ilə təsdiq edildiyi halda
- qəbul edilən qərarlar yalnız fiziki şəxslər üçün məcburidir
- qəbul edilən qərarlar yalnız hüquqi şəxslər üçün məcburidir
- məcburidir

155 Hansı fəaliyyət növü qeyri-rezidentin daimi nümayəndəlik vasitəsi ilə həyata keçirilən fəaliyyət sayılmır?

- qeyri-rezident müəssisənin özü üçün malların alınması
- məsləhət xidməti
- qeyri-rezidentin apardığı quraşdırma və ya yığma işləri
- qeyri-rezidentin apardığı tikinti və təmir işləri
- təbii ehtiyatların kəşfiyyatı

156 Qanunla ona həvalə olunmuş vəzifələri yerinə yetirməməyə və ya lazımınca yerinə yetirməməyə görə vergi agenti hansı qaydada məsuliyyət daşıyır?

- Azərbaycan Respublikasının Cinayət Məcəlləsi ilə müəyyən edilmiş qaydada
- yalnız İnzibati Xətalar Məcəlləsi ilə müəyyən edilmiş qaydada
- Konstitusiya ilə müəyyən edilmiş qaydada
- Vergi Məcəlləsi və digər qanunlarla müəyyən edilmiş qaydada
- heç bir məsuliyyət daşımır

157 Hansı şəxslər vergi agenti ola bilərlər?

- yalnız qeyri-rezident fiziki və hüquqi şəxslər
- yalnız Azərbaycan Respublikasının vətəndaşı olan və yaşı 18-dən yuxarı olan istənilən şəxs
- yalnız hüquqi şəxslər
- yalnız fiziki şəxslər
- həm fiziki, həm də hüquqi şəxslər

158 Vergi ödəyicisinin hesabat dövründə sahibkarlıq fəaliyyəti və ya digər vergi tutulan əməliyyatı olmadığı halda o, vergi orqanına nə təqdim etməlidir?

- İstənilən halda vergi hesabatını təqdim etməlidir
- Vergi hesabatını boş göstərməklə təqdim edir
- Vergi hesabatını təqdim etmir
- Vergi hesabatının əvəzinə, hesabatın təqdim edilməsi üçün müəyyən edilmiş müddətdən gec olmayaraq arayış təqdim edir
- Fəaliyyətinin dayandırıldığı gündən gec olmayaraq vergi orqanına müvafiq arayış təqdim edir

159 Aşağıda göstərilənlərdən hansı vergi ödəyicilərinin vəzifələrinə aid edilmir?

- vergi orqanlarına qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada, auditor tərəfindən yoxlanılması nəzərdə tutulduğu hallarda isə, auditor rəyi əlavə edilməklə vergi hesabatını təqdim etmək
- qanunla müəyyən edilmiş vergiləri ödəmək
- qanunvericiliklə nəzərdə tutulmuş qaydada gəlirlərinin [xərclərinin] və vergitutma obyektlərinin uçotunu aparmaq
- vergilərə dair normativ aktları almaq
- vergi orqanlarına və onların vəzifəli şəxslərinə zəruri olan məlumatları və sənədləri təqdim etmək

160 Vergi ödəyicisinin hüquqlarının və qanuni maraqlarının təmin olunmaması və ya lazımınca təmin olunmaması nəyə səbəb olur?

- qanunsuz sahibkarlıq fəaliyyətinin artmasına
- qanunla müəyyən edilmiş məsuliyyətə
- vergi ödəyiciləri arasında narazılığa
- vergi daxilolmalarının azalmasına
- sahibkarlıq fəaliyyətinin zəifləməsinə

161 Bank hesabının açılması məqsədi ilə hansı halda vergi ödəyicisinə müəyyən edilmiş müddətdə şəhadətnamə-dublikat verilmir?

- vergi hesabatlarını Vergi Məcəlləsində müəyyən edilmiş qaydada və müddətlərdə vergi orqanına təqdim etmədikdə
- vergi ödəyicisinin büdcəyə vergilər, faizlər və maliyyə sanksiyaları üzrə borcu olduqda
- vergi ödəyicisi sənədləri təqdim etmədikdə
- vergi orqanının istəyi olduqda
- vergi ödəyicisi nəzarət-kassa aparatını qeydiyyatdan keçirmədikdə

162 Vergi ödəyicilərinin vahid dövlət reyestrinin aparılması aşağıdakı göstərilənlərin hansılarından ibarətdir? 1. xronoloji qaydada vergi ödəyicilərinin reyestr jurnalının aparılması və ləğv edilmiş vergi ödəyicilərinin reyestr jurnalının aparılması; 2. uçota alınmış vergi ödəyicilərinin reyestr məlumatlarında dəyişikliklərlə bağlı dəqiqləşdirmələrin aparılması; 3. uçota alınmış vergi ödəyicilərinin ödədikləri vergilərin uçotunun aparılması; 4. uçota alınmış vergi ödəyicilərinə müvafiq məlumatın verilməsi; 5. vergi ödəyicilərinə tətbiq edilmiş maliyyə sanksiyalarının uçotunun aparılması.

- 1, 3, 5
- 1, 2, 4
- 2, 3, 4
- 1, 2, 3
- 3, 4, 5

163 Vergi ödəyicilərinin uçot məlumatlarında dəyişikliklər hansı sənəd əsasında aparılır?

- vergi ödəyicisi tərəfindən təqdim edilən rəsmi məktub əsasında
- Vergilər Nazirliyi tərəfindən təsdiq edilmiş forma üzrə təqdim etdikləri ərizə əsasında
- vergi ödəyicisinin telefon məlumatı əsasında
- Maliyyə Nazirliyi tərəfindən təsdiq edilmiş forma üzrə təqdim etdikləri ərizə əsasında

164 Vergi ödəyicisi olan fiziki şəxslər uçota alındıqda onların şəxsi məlumatlarına aşağıdakı hansı məlumatlar daxil edilir? 1. onların adı, doğulduğu tarix və yer; 2. cinsi və yaşadığı ünvan; 3. ailə vəziyyəti

barədə məlumat; 4. şəxsiyyətini təsdiq edən sənədin məlumatları və vətəndaşlığı; 5. siyasi mənsubiyyəti.

- 1, 3, 5
- 1, 2, 4
- 1, 3, 4
- 2, 3, 4
- 1, 2, 3

165 İdarəetmə yerinə görə rezident sayılan xarici hüquqi şəxsin vergi uçotundan çıxarılması və vergi ödəyicisinin eyniləşdirmə nömrəsinin ləğv edilməsi aşağıdakı hansı hallarda həyata keçirilir? 1. idarəetmə yerinə görə rezident sayılan xarici hüquqi şəxsin qeydiyyata alındığı [inkorporasiya] dövlətdə ləğv edildikdə; 2. idarəetmə yerinə görə rezident sayılan xarici hüquqi şəxsin rezidentliyi dəyişildikdə; 3. idarəetmə yerinə görə rezident sayılan xarici hüquqi şəxs fəaliyyətini müvəqqəti dayandırdıqda; 4. idarəetmə yerinə görə rezident sayılan xarici hüquqi şəxs zərərə düşdükdə.

- 2.3
- 1.2
- 2.4
- 1.3
- 3.4

166 Xarici dövlətin rezidentinin Azərbaycan Respublikasında fəaliyyət göstərən daimi nümayəndəlik yaratmayan bölməsinin vergi uçotundan çıxarılması və VÖEN-in ləğv edilməsi aşağıdakı hansı hallarda həyata keçirilir? 1. xarici dövlətin rezidenti olan şəxs və ya daimi nümayəndəlik yaratmayan bölmə ləğv edildikdə; 2. daimi nümayəndəlik yaratmayan bölmənin fəaliyyəti daimi nümayəndəlik yaratdıqda; 3. daimi nümayəndəlik yaratmayan bölmə fəaliyyətini müvəqqəti dayandırdıqda; 4. daimi nümayəndəlik yaratmayan bölmənin rəhbəri [təmsilçisi] köçdükdə.

- 1.3
- 1.2
- 3.4
- 2.3
- 2.4

167 İdarəetmə yerinə görə rezident sayılan xarici hüquqi şəxs tərəfindən uçota alınma barədə verdiyi ərizəyə aşağıdakı sənədlərdən hansıları əlavə edilməlidir? 1. qeydiyyata alındığı dövlətdə qeydiyyat [inkorporasiya] sənədi və ticarət reyestrindən çıxarış və təsis sənədləri; 2. Azərbaycan Respublikasında hüquqi ünvanını təsdiq edən sənəd [icarə müqaviləsi, mülkiyyət hüququnu təsdiq edən və ya digər sənədlər] və hüquqi şəxsin rəhbərinin [təmsilçinin] şəxsiyyətini təsdiq edən sənədin surəti; 3. xarici hüquqi şəxsin qeydiyyata alındığı ölkədə və digər ölkələrdəki rəhbərlərinin [təmsilçilərinin] şəxsiyyətini təsdiq edən sənədlərin surəti; 4. Azərbaycan Respublikasında və digər ölkələrdə bilavasitə və ya dolayısı yolla nəzarətində olan qurumlar və gəlir mənbələri haqqında müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən forma üzrə məlumat; 5. xarici hüquqi şəxsin qeydiyyata alındığı ölkədə və digər ölkələrdəki fəaliyyət növləri barədə məlumat.

- 1, 3, 5
- 1, 2, 4
- 3, 4, 5
- 1, 2, 3
- 2, 4, 5

168 Xarici dövlətin rezidentinin Azərbaycan Respublikasında fəaliyyət göstərən və daimi nümayəndəlik yaratmayan bölmələrinin uçota alınması barədə verilən ərizəyə aşağıdakı göstərilən sənədlərdən hansıları əlavə edilməlidir: 1. xarici hüquqi şəxsin qeydiyyata alındığı dövlətdə qeydiyyat [inkorporasiya] sənədi və ticarət reyestrindən çıxarış; 2. xarici dövlətin rezidentinin səlahiyyətli orqanının Azərbaycan Respublikasında daimi nümayəndəlik yaratmayan bölməsinin yaradılması haqqında qərar və təsis sənədləri; 3. xarici hüquqi şəxsin qeydiyyata alındığı ölkədə və digər ölkələrdə əldə etdiyi gəlirlər barədə məlumatlar; 4. xarici hüquqi şəxsin qeydiyyata alındığı ölkədə və digər ölkələrdəki rəhbərlərinin [təmsilçilərinin] şəxsiyyətini təsdiq edən sənədlərin surəti; 5. Azərbaycan Respublikasında hüquqi ünvanını təsdiq edən sənəd [icarə müqaviləsi,

mülkiyyət hüququnu təsdiq edən və ya digər sənədlər] və bölmənin rəhbərinin [təmsilçisinin] şəxsiyyətini təsdiq edən sənədin surəti.

- 2, 4, 5
- 1, 2, 5
- 3, 4, 5
- 1, 2, 3
- 1, 3, 5

169 İri vergi ödəyicilərinə aid edilən müəssisələrin olduqları yer üzrə uçotdan çıxarılaraq mərkəzləşdirilmiş qaydada yenidən uçota alınması və ya mərkəzləşdirilmiş uçotdan çıxarılması barədə Vergilər Nazirliyinin müəyyən etdiyi vergi orqanı tərəfindən nə vaxtadək qərar qəbul edilir?

- hər il may ayının 15-dək
- hər il may ayının 1-dək
- hər il yanvar ayının 1-dək
- hər il iyun ayının 30-dək
- hər il iyun ayının 10-dək

170 Azərbaycan Respublikasında fəaliyyət göstərən xarici ölkələrin diplomatik və konsulluq nümayəndəlikləri, habelə beynəlxalq təşkilatların nümayəndəlikləri hansı qaydada uçota alına bilərlər?

- öz ölkələrinin qanunvericiliklərinə uyğun olaraq uçota alına bilərlər
- Vergi Məcəlləsinə uyğun olaraq uçota alına bilərlər
- Vergi Məcəlləsinə uyğun olaraq həmin şəxslər vergi orqanlarında uçota alınmırlar
- onların yalnız müstəsna hallarda uçota alınması nəzərdə tutulmuşdur
- həmin şəxslərin qanunvericilikdə uçota alınması nəzərdə tutulmamışdır

171 Vergi nəzarətini həyata keçirməsini təmin etmək məqsədilə Azərbaycan Respublikasında fəaliyyət göstərən xarici ölkələrin diplomatik və konsulluq nümayəndəlikləri, habelə beynəlxalq təşkilatların nümayəndəlikləri hansı orqanda uçota alına bilərlər?

- xarici işlər nairliyində
- vergi orqanında
- maliyyə orqanında
- yerli [bələdiyyə] orqanında
- gömrük orqanında

172 Şəhadətnamə dublikatın bildiriş hissəsi neçə gün müddətində bank idarəsi tərəfindən qaytarılmadıqda, vergi orqanı onun səbəblərini dəqiqləşdirməyə başlayır?

- 30 gün
- 10 gün
- 5 gün
- 3 gün
- 15 gün

173 Vergi orqanı bank idarəsindən bildirişi aldıqdan və bildirişdə göstərilən məlumatları vergi uçotu məlumatlarına daxil etdikdən sonra neçə gün müddətinə həmin məlumatları müvafiq icra hakimiyyəti orqanına [Dövlət Sosial Müdafiə Fonduna] elektron və [və ya] kağız daşıyıcılar vasitəsilə göndərir?

- 30 gün müddətinə
- 1 gün müddətinə
- 10 gün müddətinə
- 5 gün müddətinə
- 15 gün müddətinə

174 Şəhadətnamə-dublikat alındığı tarixdən neçə gün müddətində hesabın açılması üçün istifadə olunmadıqda qüvvədən düşmüş hesab edilir?

- belə bir məhdudiyyət nəzərdə tutulmayıb
- 10 gün
- 20 gün
- 15 gün
- 5 gün

175 Vergi orqanı şəhadətnamə-dublikatı vergi ödəyicisinə verdikdən sonra müvafiq icra hakimiyyəti orqanına [Dövlət Sosial Müdafiə Fonduna] məlumatı hansı qaydada göndərir?

- yalnız kağız daşıyıcılar vasitəsilə
- elektron və [və ya] kağız daşıyıcılar vasitəsilə
- istənilən qaydada
- yalnız elektron daşıyıcı vasitəsilə
- bu barədə məlumat göndərilmir

176 Vergi orqanı şəhadətnamə-dublikatı vergi ödəyicisinə verdikdən sonra neçə gün müddətinə müvafiq icra hakimiyyəti orqanına [Dövlət Sosial Müdafiə Fonduna] məlumatı göndərir?

- 5 gün müddətinə
- 1 gün müddətinə
- 3 gün müddətinə
- 10 gün müddətinə
- 15 gün müddətinə

177 Şəhadətnamə-dublikatın və onun alınması üçün vergi ödəyicisi tərəfindən verilən ərizənin forması hansı dövlət orqanı tərəfindən təsdiq olunur?

- Maliyyə Nazirliyi ilə razılaşdırılmaqla Mərkəzi Bank tərəfindən
- Vergilər Nazirliyi
- Ədliyyə Nazirliyi ilə razılaşdırılmaqla Maliyyə Nazirliyi
- Ədliyyə Nazirliyi ilə razılaşdırılmaqla Vergilər Nazirliyi
- Maliyyə Nazirliyi ilə razılaşdırılmaqla Vergilər Nazirliyi

178 Vergi ödəyicisi uçota alınması haqqında şəhadətnamə aldıqdan sonra vergi orqanı tərəfindən ona bank idarəsində hesab açmaq üçün neçə gün müddətində şəhadətnamə-dublikat verilir?

- dərhal
- 2 gündən gec olmayaraq
- 6 gündən gec olmayaraq
- 3 gündən gec olmayaraq
- 6 gündən gec olmayaraq

179 Bank hesabının açılması məqsədi ilə şəhadətnamə-dublikat vergi ödəyicisinə nə vaxt verilmir?

- yalnız büdcəyə vergilər üzrə borcu olduqda
- büdcəyə vergilər, faizlər və maliyyə sanksiyaları üzrə borcu olduqda
- istənilən halda verilir
- vergi ödəyicisi bəyannamə təqdim etmədiyi halda
- vergilər, faizlər və maliyyə sanksiyaları üzrə borcu olmadıqda

180 Bank hesabının açılması məqsədi ilə vergi ödəyicisinə şəhadətnamə-dublikat hansı müddətdə verilir?

- dərhal
- 2 gündən gec olmayaraq
- 5 gündən gec olmayaraq
- 3 gündən gec olmayaraq
- 10 gündən gec olmayaraq

181 Vergi ödəyiciləri vahid dövlət reyestrinə daxil edilərkən hansı məlumatlardan istifadə olunur?

- Daxili İşlər Nazirliyinin məlumat bazasındakı məlumatlardan
- ● onların uçota alınması haqqında vergi orqanına təqdim etdikləri ərizədəki məlumatlardan
- dövlət qeydiyyatını həyata keçirən müvafiq icra hakimiyyəti orqanı tərəfindən həmin şəxsin dövlət qeydiyyatından keçməsi barədə verilən arayışın məlumatlarından
- mənbəyi bəlli olan istənilən məlumatdan
- vergi ödəyicisinin dövlət qeydiyyatına alınması haqqında şəhadətnamənin, yaxud nizamnaməsinin [əsasnaməsinin] məlumatlarından

182 İdarəetmə yerinə görə rezident sayılan xarici hüquqi şəxslər Azərbaycan Respublikasının Vergi Məcəlləsinə və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı ikiqat vergitutmanın aradan qaldırılması haqqında beynəlxalq müqavilələrin müddəalarına əsasən idarəetmə yerinə görə rezident sayıldıqları vaxtdan neçə gün müddətində olduqları yer üzrə vergi orqanına ərizə təqdim etməlidirlər?

- 10 gün
- 15 gün
- 5 gün
- ● 30 gün
- 20 gün

183 Xüsusi vergi rejimində fəaliyyət göstərən müəssisələrin mərkəzləşdirilmiş qaydada yenidən uçota alınması və ya mərkəzləşdirilmiş uçotdan çıxarılması, onların xüsusi vergi rejimində fəaliyyətə başlaması və ya həmin fəaliyyəti dayandırması barədə onların mərkəzləşdirilmiş uçotunu aparan müvafiq vergi orqanına ərizə ilə müraciət etdiyi gündən sonra neçə gün müddətində həyata keçirilməlidir?

- 30 gün
- ● 15 gün
- 10 gün
- 5 gü
- 20 gün

184 Olduqları yer üzrə vergi uçotuna alınmış hüquqi şəxslər xüsusi vergi rejimi üzrə fəaliyyətə başladığı gündən sonra neçə gün müddətində mərkəzləşdirilmiş uçota alınmaq üçün vergi ödəyicilərinin mərkəzləşdirilmiş uçotunu aparan müvafiq vergi orqanına müraciət etməyə borcludurlar?

- 30 gün
- ● 15 gün
- 10 gün
- 5 gün
- 20 gün

185 Mərkəzləşdirilmiş uçota alınmış iri vergi ödəyicilərinin və xüsusi vergi rejimli müəssisələrin filiallarının, nümayəndəliklərinin və ya digər təsərrüfat subyektlərinin [obyektlərinin] vergi uçotu hansı normativ sənədlə müəyyən edilmiş qaydada həyata keçirilir?

- Ədliyyə və Maliyyə Nazirlikləri tərəfindən müəyyən edilmiş qaydada həyata keçirilir
- ● Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada həyata keçirilir
- Vergilər Nazirliyinin əmri ilə müəyyən edilmiş qaydada həyata keçirilir
- Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş qaydada həyata keçirilir
- yerli vergi orqanları tərəfindən müəyyən edilən qaydada həyata keçirilir

186 Vergi ödəyicisinin vergi uçotuna alınması yerinin müəyyən edilməsi ilə bağlı çətinliklər ortaya çıxdıqda hansı orqan tərəfindən qərar qəbul edilir?

- təqdim olunmuş məlumatlar əsasında cəlb edilmiş ekspert və ya mütəxəssis tərəfindən
- ● təqdim olunmuş məlumatlar əsasında yuxarı vergi orqanı tərəfindən
- təqdim olunmuş məlumatlar əsasında yerli vergi orqanları tərəfindən
- təqdim olunmuş məlumatlar əsasında məhkəmə tərəfindən
- təqdim olunmuş məlumatlar əsasında bələdiyyə orqanları tərəfindən

187 Qeyri-rezidentin Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq yaradılmış filialları və daimi nümayəndəlikləri necə uçota alınır?

- Xarici İşlər Nazirliyində uçota alınır və onlara ayrıca kod verilir
- ayrıca uçota alınır və onlara VÖEN verilir
- uçota alınmır
- rezidenti olduğu dövlətdə uçota alınır
- uçota alınır, lakin onlara VÖEN verilmir

188 Vergi ödəyicisinin onun filialının, nümayəndəliyinin və ya digər təsərrüfat subyektinin [obyektinin] olduğu yer üzrə uçota alınması hansı qaydada həyata keçirilir?

- Mülki Prosessual Məcəllə ilə müəyyən edilmiş qaydada həyata keçirilir
- Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada həyata keçirilir
- Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada həyata keçirilir
- Mülki Məsəllə ilə müəyyən edilmiş qaydada həyata keçirilir
- vergi orqanının rəhbərinin müəyyən etdiyi qaydada həyata keçirilir

189 Vergi ödəyicilərinin vahid dövlət reyestrini hansı dövlət orqanı aparır?

- Dövlət Statistika Komitəsi
- Vergilər Nazirliyi
- Ədliyyə Nazirliyi
- Maliyyə Nazirliyi
- Nazirlər Kabineti

190 Eyni vergi ödəyicisinə neçə VÖEN verilə bilər?

- hər fəaliyyət sahəsinə görə ayrıca VÖEN verilə bilər
- 1 VÖEN verilə bilər
- məhdudiyyət qoyulmur
- 2 VÖEN verilə bilər
- 4 VÖEN verilə bilər

191 Uçota alınma, yenidən uçota alınma, uçotdan çıxarılma zamanı vergi ödəyicisi tərəfindən nə qədər ödəniş aparılır?

- ilk dəfə uçota alınarkən ödənişsiz, yenidən uçota alınarkən və ya uçotdan çıxarılarkən 40 manat miqdarında
- Ödənişsiz həyata keçirilir
- Şərti maliyyə vahidinin 5 misli miqdarında
- 3 manat miqdarında
- Şərti maliyyə vahidinin 8 misli miqdarında

192 Vergi ödəyicisinin vergi orqanında uçota alınmaq üçün verdiyi ərizə formasında olan məlumatlarda hər hansı dəyişiklik baş verdikdə, dəyişiklik baş verən gündən neçə gün müddətində vergi orqanına məlumat verməlidir?

- 15 gün
- 40 gün
- 10 gün
- 5 gün
- 20 gün

193 Vergi ödəyicisinin vergi uçotunda olduğu vergi orqanına olduğu yerin və ya yaşadığı yerin dəyişdiyi barədə ərizə ilə müraciət etdiyi gündən sonra neçə gün müddətində həmin vergi orqanı vergi ödəyicisinin yenidən uçota alınmasını həyata keçirməlidir?

- 30 gün
- 5 gün

- 10 gün
- 15 gün
- 20 gün

194 Vergi ödəyicisinin olduğu yer və ya yaşadığı yer dəyişdikdə vergi orqanına bu cür dəyişiklik baş verdiyi gündən neçə gün müddətində ərizə verilməlidir?

- 30 gün
- 40 gün
- 10 gün
- 5 gün
- 20 gün

195 Vergi ödəyicisinin uçotda olmasını təsdiq edən Şəhadətnamə itirildikdə və ya yararsız hala düşdükdə vergi ödəyicisinin müraciəti əsasında hansı sənəd verilir

- Şəhadətnamə-dublikat
- heç bir sənəd verilmir
- Şəhadətnamənin yeni nüsxəsi
- Şəhadətnamənin surəti
- Şəhadətnamənin itməsi ilə bağlı arayış

196 Vergi orqanı vergi ödəyicisinin uçota alınmasını vergi uçotuna alınması haqqında ərizə və Vergi Məcəlləsində göstərilən digər sənədlər daxil olduğu gündən sonrakı neçə gün müddətində həyata keçirməli və həmin müddətdə də vergi ödəyicisinə müvafiq şəhadətnamə verməlidir?

- 5 gün
- 2 gün
- 4 gün
- 10 gün
- 20 gün

197 Vergi orqanı vergi ödəyicisinə uçota alınması barədə nə təqdim edir?

- vergi ödəyicisinin uçota alınması barədə bildiriş təqdim edir
- şəhadətnamə təqdim edir
- vergi ödəyicisinin uçota alınması barədə arayış təqdim edir
- vergi ödəyicisinin uçota alınması barədə vergi orqanının əmrindən çıxarış təqdim edir
- heç nə təqdim etmir

198 Uçota alınmaq üçün ərizənin forması hansı orqan tərəfindən təsdiq olunur?

- Ədliyyə Nazirliyi tərəfindən
- Vergilər Nazirliyi tərəfindən
- Maliyyə Nazirliyi ilə razılaşdırılmaqla Vergilər Nazirliyi tərəfindən
- Maliyyə Nazirliyi tərəfindən
- təsdiq olunmur

199 Vergi orqanında uçota alınmaq üçün vergi ödəyicisi tərəfindən təqdim edilən ərizə kim tərəfindən doldurulur?

- özəl vergi xidməti göstərən şəxslər tərəfindən
- vergi ödəyicisi və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən
- yalnız vergi ödəyicisi tərəfindən
- vergi orqanının «Vergi ödəyicilərinə xidmət şöbəsi»nin əməkdaşları tərəfindən
- yalnız vergi ödəyicisinin səlahiyyətli nümayəndəsi tərəfindən

200 İdarəetmə yerinə görə rezident sayılan xarici hüquqi şəxslər Azərbaycan Respublikasında hansı müddətdə olduqları yer üzrə vergi orqanına ərizə təqdim etməlidirlər?

- ◯ fəaliyyətə başladıqdan 30 gün müddətində
- ◉ idarəetmə yerinə görə rezident sayıldıqları vaxtdan 30 gün müddətində
- ◯ fəaliyyətə başladığı günədək
- ◯ idarəetmə yerinə görə rezident sayıldıqları vaxtdan 10 gün müddətində
- ◯ gəlir əldə etmək hüququnun yarandığı gündən gec olmayaraq

201 Azərbaycan Respublikasında daimi nümayəndəlik yaratmayan bölmələr Azərbaycan Respublikasında hansı müddətdə olduqları yer üzrə vergi orqanına ərizə təqdim etməlidirlər?

- ◯ fəaliyyətə başladığı günədək
- ◉ fəaliyyətə başladıqdan 30 gün müddətində
- ◯ fəaliyyətə başladıqdan 10 gün müddətində
- ◯ fəaliyyətə başladıqdan 5 gün müddətində
- ◯ fəaliyyətə başladıqdan 20 gün müddətində

202 Azərbaycan Respublikasında daimi nümayəndəlik yaratmayan bölmələr Azərbaycan Respublikasında fəaliyyətə başladıqdan neçə gün müddətində olduqları yer üzrə vergi orqanına ərizə təqdim etməlidirlər?

- ◯ 45 gün
- ◉ 30 gün
- ◯ gəlir əldə etmək hüququnun yarandığı gündən gec olmayaraq
- ◯ fəaliyyətə başladığı günədək
- ◯ 20 gün

203 Olduqları yer üzrə vergi uçotuna alınmış şəxslər sonradan iri vergi ödəyicilərinə və ya xüsusi vergi rejimli müəssisələrə aid edildikdə:

- ◯ əvvəlki VÖEN ləğv edilməklə yeni VÖEN verilir
- ◉ əvvəlki eyniləşdirmə nömrələri ilə mərkəzləşdirilmiş uçota alınırlar
- ◯ VÖEN ilə yanaşı əlavə kod verilir
- ◯ onlara yeni eyniləşdirmə nömrələri verilir
- ◯ əvvəlki VÖEN saxlanılmaqla yeni VÖEN verilir

204 İri vergi ödəyicilərinin müəyyən edilməsinin neçə meyarı var?

- ◯ 5 forması
- ◉ 3 forması
- ◯ 4 forması
- ◯ 6 forması
- ◯ 2 forması

205 Qeyri kommersiya hüquqi şəxslər dövlət qeydiyyatına alındığı gündən sonra neçə gün müddətində vergi orqanında uçota alınmaq üçün ərizə verməlidirlər?

- ◯ 40 gün
- ◉ 30 gün
- ◯ 15 gün
- ◯ 10 gün
- ◯ 45 gün

206 Azərbaycan Respublikasının hüdudlarından kənarda gəlir əldə edən rezident fiziki şəxslər uçota alınmaq üçün ərizəni vergi orqanına nə vaxt verməlidir?

- ◯ Respublika hüdudlarından kənarda gəlir edən şəxslər ikiqat vergitutmanın tələblərinə uyğun olaraq uçota alınmırlar.
- ◉ gəlir əldə etmək hüququ yarandığı gündən gec olmayaraq
- ◯ istənilən vaxt
- ◯ 30 gün müddətində
- ◯ sahibkarlıq fəaliyyətinə başladığı günədək

207 Dövlət qeydiyyatını həyata keçirən Ədliyyə Nazirliyi hüquqi şəxslərin dövlət qeydiyyatına alınması barəsində onlara qeydiyyat sənədləri ilə birlikdə daha hansı sənədi verməlidir?

- ○ şəhadətnamə dublikat
- ● həmin sənədlərin verilməsi tarixini əks etdirən arayış verməlidir
- ○ protokoldan çıxarış verməlidir
- ○ qəbz verməlidir
- ○ heç nə verməli deyil

208 Səyyar vergi yoxlamasının materiallarına baxılmanın nəticələri üzrə vergi orqanının rəhbəri [rəhbərin müavini] 10 gün müddətində aşağıda göstərilən qərarlardan hansıları çıxara bilər? 1. vergi ödəyicisinin vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb edilməsi; 2. vergi ödəyicisinin vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb edilməsindən imtina olunması; 3. vergi ödəyicisinin əmlakının siyahıya alınması; 4. xronometraj metodu ilə müşahidə aparılması; 5. əlavə vergi yoxlaması tədbirlərinin keçirilməsi.

- ○ 1, 4, 5
- ● 1, 2, 5
- ○ 2, 3, 4
- ○ 1, 2, 3
- ○ 3, 4, 5

209 Vergi yoxlamasının həyata keçirilməsi üzrə hərəkətlərin icraatı zamanı tərtib edilən protokolda aşağıdakılardan hansılar göstərilir? 1. konkret hərəkətlərin həyata keçirilməsinin yeri və vaxtı; 2. vergi ödəyicisinin əvvəlki yoxlamalarda məsuliyyətə cəlb edilib-edilməməsi; 3. hərəkətin həyata keçirilməsində iştirak edən və ya onun həyata keçirilməsini müşahidə edən şəxsin adı, lazım olduqda onun ünvanı, vətəndaşlığı, azərbaycan dilində danışa bilib-bilməməsi; 4. hərəkətin məzmunu, onun həyata keçirilməsinin ardıcıllığı; 5. vergi ödəyicisinin büdcə qarşısında borc öhdəliklərinin olub-olmaması

- ○ 3, 4, 5
- ● 1, 3, 4
- ○ 1, 3, 5
- ○ 2, 4, 5
- ○ 1, 2, 4

210 Səyyar vergi yoxlamasının keçirilməsi zamanı müqavilə əsasında mütəxəssis cəlb edildikdə həmin müqavilədə hansı məlumatlar əks etdirilir? 1. müqavilə tərəflərinin hüquqları və vəzifələri; 2. müqavilə tərəflərinin vergi öhdəlikləri; 3. səhv və ya bilərəkdən yalan rəy verməsinə görə mütəxəssisin məsuliyyəti və inzibati qanunvericilikdə nəzərdə tutulan digər məsələlər; 4. səhv və ya bilərəkdən yalan rəy verməsinə görə mütəxəssisin məsuliyyəti və mülki qanunvericilikdə nəzərdə tutulan digər məsələlər; 5. mütəxəssis qarşısında qoyulan suallar.

- ○ 1, 2, 3
- ● 1, 4, 5
- ○ 2, 3, 4
- ○ 3, 4, 5
- ○ 1, 3, 4

211 Səyyar vergi yoxlaması zamanı ekspertiza keçirilməsi üçün dəvət olunmuş ekspertin rəyinin surəti və ya onun rəy vermək imkanının olmaması barədə xəbər yoxlanılan şəxsə verildikdə, həmin şəxsin aşağıdakı hansı hüquqları vardır? 1. izahat vermək, öz etirazlarını bəyan etmək; 2. ekspertə əlavə sualların qoyulmasını tələb etmək; 3. ekspertin rəyi ilə tanış olmaqdan imtina etmək; 4. bu halda heç bir hüququ yoxdur; 5. əlavə, yaxud təkrar ekspertizanın təyin edilməsini tələb etmək.

- ○ 1, 3, 5
- ● 1, 2, 5
- ○ 3, 4, 5
- ○ 2, 3, 4
- ○ 1, 4, 5

212 Səyyar vergi yoxlamasının keçirilməsi zamanı ekspertiza keçirilməsi haqqında qərar çıxarmış vergi orqanı vergi ödəyicisinə münasibətdə aşağıdakı hansı tədbirləri görməlidir? 1. vergi ödəyicisini ekspertizanın keçirilməsi haqqında qərarla tanış etməlidir; 2. ekspertin vergi ödəyicisi tərəfindən göstərilən şəxslərdən təyin olunmasına icazə verməməlidir; 3. vergi ödəyicisi tərəfindən ekspertə əlavə sualların verilməsinin qarşısı alınmalıdır; 4. həmin şəxsə ekspertizanın təyin edilməsi və keçirilməsi zamanı Vergi Məcəlləsində nəzərdə tutulmuş hüquqlarını izah etməlidir.

- ○ 1, 2
- ● 1, 4
- ○ 2, 3
- ○ 2, 4
- ○ 3, 4

213 Səyyar vergi yoxlamasının keçirilməsi zamanı müqavilə əsasında ekspert cəlb edildikdə həmin müqavilədə hansı məlumatlar əks etdirilir? 1. müqavilə tərəflərinin vergi öhdəlikləri; 2. müqavilə tərəflərinin hüquqları və vəzifələri; 3. ekspert qarşısında qoyulan suallar; 4. səhv və ya bilərəkdən yalan rəy verməsinə görə ekspertin məsuliyyəti və mülki qanunvericilikdə nəzərdə tutulan digər məsələlər; 5. səhv və ya bilərəkdən yalan rəy verməsinə görə ekspertin məsuliyyəti və inzibati qanunvericilikdə nəzərdə tutulan digər məsələlər.

- ○ 1, 3, 5
- ● 2, 3, 4
- ○ 1, 3, 4
- ○ 3, 4, 5
- ○ 1, 4, 5

214 Səyyar vergi yoxlaması zamanı vergi ödəyicisi sənədləri və nümunə kimi əşyaları vermədiyi halda vergi orqanı tərəfindən hansı tədbirlər görülür?

- ○ imtina protokolu tərtib edilir və vergi orqanının vəzifəli şəxsləri, yoxlamada iştirak edən şəxslər, habelə vergi ödəyicisi və ya onun nümayəndəsi tərəfindən imzalanır
- ● imtina aktı tərtib edilir və vergi orqanının vəzifəli şəxsləri, yoxlamada iştirak edən şəxslər, habelə vergi ödəyicisi və ya onun nümayəndəsi tərəfindən imzalanır
- ○ vergi ödəyicisinin hesabları bağlanılır
- ○ vergi ödəyicisinin hesabları bağlanılır
- ○ vergi ödəyicisinin fəaliyyətinin dayandırılması ilə əlaqədar məhkəməyə müraciət olunur

215 Səyyar vergi yoxlaması keçirildikdə hansı hallarda yoxlamanı bilavasitə həyata keçirən vergi orqanının vəzifəli şəxsi Vergi Məcəlləsinə müvafiq olaraq ona təqdim edilmiş sənədləri və nümunə kimi əşyaları götürə bilər? 1. vergi yoxlamasının predmetinə aid olan və vergilərin hesablanması üçün tələb olunan vergi ödəyicisi tərəfindən təqdim olunan sənədlərin və əşyaların öyrənilməsinə əlavə vaxt tələb olunduqda; 2.vergi yoxlamasının predmetinə aid olan və vergilərin hesablanması üçün tələb olunan vergi ödəyicisi tərəfindən təqdim olunan əşyaların mənşə ölkəsinin müəyyən edilməsi tələb olunduqda; 3. təqdim olunan sənədlərin Mühasibat uçotu haqqında Azərbaycan Respublikasının Qanununa uyğun tərtib olunmaması müəyyən edildikdə; 4. təqdim olunan sənədlərdə vergi qanunvericiliyinin pozulması müəyyən edildikdə; 5. vergi qanunvericiliyinin pozulması halları əşyalarla bağlı olduqda.

- ○ 1, 2, 5
- ● 1, 4, 5
- ○ 2, 3, 4
- ○ 3, 4, 5
- ○ 1, 3, 4

216 Vergi ödəyicisi yoxlama aktı ilə razılaşmadıqda, aktın verilməsi günündən müəyyən olunmuş 30 gün müddət bitdikdən sonra 15 gündən çox olmayan müddətdə vergi orqanının rəhbəri [onun müavini] hansı məsələlərə baxır? 1. vergi ödəyicisindən Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada götürülmüş, habelə vergi ödəyicisi tərəfindən təqdim edilmiş sənədlərə; 2. vergi yoxlaması aktına, vergi qanunvericiliyinin pozulması hallarına və onların aradan qaldırılması; 3. müvafiq sanksiyaların [cərimələrin] tətbiq edilməsi; 4.

qanunvericiliyin pozulması hallarının olub-olmamasından asılı olmayaraq məsuliyyət məsələsinə; 5. heç bir məsələyə baxılmır.

- 3, 4, 5
- 1, 2, 3
- 1, 3, 5
- 2, 3, 4
- 2, 4, 5

217 Növbədənkənar səyyar vergi yoxlaması vergi orqanları tərəfindən aşağıda göstərilən hansı hallarda keçirilə bilər? 1. bir neçə təsisçisi olan hüquqi şəxsin təsisçilərindən biri vəfat etdikdə; 2. ƏDV üzrə artıq ödənilmiş vergi, faiz və maliyyə sanksiyası digər vergilərin, faizlərin və maliyyə sanksiyalarının ödənilməsi hesabına və ya sonrakı öhdəliklər üzrə ödəmələrin hesabına aid edildikdə. Bu halda növbədənkənar vergi yoxlaması yalnız vergi ödəyicisinin ƏDV-yə cəlb edilən əməliyyatları üzrə aparıla bilər; 3. «Müflisləşmə və İflas haqqında» Qanuna əsasən müəssisə məhkəmənin qərarı ilə müflis elan etdikdə; 4. vergi orqanının əldə etdiyi mənbəyi bəlli olan hər hansı məlumat əsasında vergi ödəyicisinin gəlirlərinin və ya vergitutma obyektinin gizlədildiyi [azaldıldığı] aşkar edildikdə; 5. vergi ödəyicisi olan hüquqi şəxsin ləğv edilməsi, yenidən təşkil edilməsi və ya fiziki şəxsin hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətinə xitam verilməsi barədə müraciəti olduqda.

- 1, 3, 5
- 2; 4; 5
- 2; 3; 5
- 1; 2; 3
- 1; 3; 4

218 Növbədənkənar səyyar vergi yoxlaması vergi orqanları tərəfindən aşağıda göstərilən hansı hallarda keçirilə bilər: 1. verginin hesablanması və ödənilməsi üçün zəruri olan vergi hesabatı sənədləri müəyyən edilmiş müddətdə və bu barədə vergi orqanının xəbərdarlığından sonra da təqdim edilmədikdə; 2. digər vergi ödəyicilərindən daxil olmuş anonim məlumatlar olduqda; 3. vergi yoxlamasının nəticələri üzrə tərtib edilmiş aktda dürüst olmayan və [və ya] təhrif olunmuş məlumatlar aşkar edildikdə; 4. ƏDV üzrə artıq ödənilmiş vergi, faiz və maliyyə sanksiyası digər vergilərin, faizlərin və maliyyə sanksiyalarının ödənilməsi hesabına və ya sonrakı öhdəliklər üzrə ödəmələrin hesabına aid edildikdə; 5. vergi ödəyicisi ödənilməli olan vergi məbləğlərini vaxtında və tam ödəmədikdə.

- 1, 4, 5
- 1, 3, 4
- 2, 4, 5
- 1, 2, 3
- 1, 3, 5

219 Aşağıda göstərilən hansı hallarda yuxarı vergi orqanının əsaslandırılmış qərarına əsasən səyyar vergi yoxlamasının nəticələri üzrə aktın tərtibi müddəti 30 gündən çox olmayan müddətdə uzadıla bilər: 1. səyyar vergi yoxlamasının obyektiv və dolğun keçirilməsi üçün zəruri olan sənədlər, o cümlədən vergi orqanının sorğusuna cavab xarici ölkədən alındıqda; 2. yoxlama üçün zəruri olan sənədlər vergi ödəyicisi tərəfindən təqdim olunmadıqda; 3. nümunə kimi götürülən əşyaların tədqiqi, səyyar vergi yoxlaması zamanı ekspertizanın keçirilməsi və ya mütəxəssis tərəfindən rəy verilmə üçün müxtəlif bilik sahələrindən istifadə etməklə aparıldıqda; 4. səyyar vergi yoxlaması ilə əlaqədar vergi orqanları tərəfindən göndərilən sorğulara cavabların alınma müddətləri cavab göndərən şəxslər tərəfindən pozulduqda; 5. səyyar vergi yoxlaması keçirilən zaman aparılan inventarizasiyanın müddəti uzadıldıqda.

- 2, 3, 5
- 1, 3, 4
- 2, 4, 5
- 1, 3, 5
- 1, 2, 3

220 Növbəti səyyar vergi yoxlaması keçirilərkən vergi ödəyicisinə göndərilən bildirişdə nələr göstərilməlidir? 1. vergi ödəyicisinin hüquq və vəzifələri; 2. vergi orqanının hüquq və vəzifələri; 3. vergi

ödəyicisinin hüquqi ünvanı və təsisçiləri; 4. vergi yoxlamasının əsası və tarixi 5. vergi ödəyicisinin obyektlərinin sayı və hansı növ vergilərin ödəyicisi olması.

- (●) 1, 2, 4
- ( ) 1, 2, 3
- ( ) 1, 3, 4
- ( ) 2, 3, 5
- ( ) 3, 4, 5

221 Aşağıda göstərilən hallardan hansı biri olduqda, yuxarı vergi orqanının əsaslandırılmış qərarına əsasən səyyar vergi yoxlamasının nəticələri üzrə aktın tərtibi müddəti 30 gündən çox olmayan müddətə uzadıla bilər?

- ( ) səyyar vergi yoxlamasının nəticələri üzrə aktın tərtibi müddəti uzadıla bilməz
- (●) səyyar vergi yoxlaması ilə əlaqədar vergi orqanları tərəfindən göndərilən sorğulara cavabların alınma müddətləri cavab göndərən tərəfindən pozulduqda
- ( ) səyyar vergi yoxlamasının keçirilməsi zamanı aparılan inventarizasiyanın keçirilməsi müddəti uzadıldıqda
- ( ) yoxlama üçün zəruri olan sənədlər vergi ödəyicisi tərəfindən təqdim edilmədikdə
- ( ) səyyar vergi yoxlaması zamanı vergi yoxlamasını aparan vəzifəli şəxslər xəstələndikdə

222 Aşağıdakı hansı hallarda keçirilən yoxlamalar istisna olmaqla, vergi orqanı tərəfindən yoxlanılmış vergi dövrü üçün vergi ödəyicisinin ödədiyi və ya ödəməli olduğu vergilər üzrə səyyar vergi yoxlamalarının keçirilməsi qadağandır? 1. növbəti vergi yoxlaması keçirildikdə; 2. vergi ödəyicisi olan hüquqi şəxslər ləğv edildikdə; 3. növbədənkənar vergi yoxlaması keçirildikdə; 4. istənilən halda; 5. hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti göstərən fiziki şəxs sahibkarlıq fəaliyyətinə xitam verilməsi barədə müraciət etdikdə

- ( ) 1, 3, 5
- (●) 2, 3, 5
- ( ) 2, 3, 4
- ( ) 3, 4, 5
- ( ) 1, 4, 5

223 Səyyar vergi yoxlamasının materiallarına baxılmanın nəticələri üzrə vergi orqanının rəhbəri [rəhbərin müavini] 10 gün müddətində hansı qərarı çıxarır?

- ( ) inventarizasiyanın keçirilməsi haqqında
- (●) vergi ödəyicisinin vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb edilməsi haqqında
- ( ) xronometraj metodu ilə müşahidə aparılması haqqında
- ( ) vergi ödəyicisinin əmlakının siyahıya alınması haqqında
- ( ) operativ vergi nəzarətinin həyata keçirilməsi haqqında

224 Səyyar vergi yoxlaması zamanı hansı hallarda mütəxəssis dəvət oluna bilər?

- ( ) yuxarı vergi orqanının göstərişi ilə
- (●) vergi ödəyicisinin tələbi ilə
- ( ) dəvət olunmur
- ( ) məhkəmənin qərarı ilə
- ( ) dəvət olunmur

225 Səyyar vergi yoxlaması zamanı ekspertiza keçirildikdə ekspertin rəyində hansı məlumatlar əks etdirilir?

- ( ) yalnız ekspertin gəldiyi nəticə
- (●) ekspert tərəfindən aparılan araşdırma, gəldiyi nəticələr və qoyulan suallara əsaslandırılmış cavablar
- ( ) ekspertiza zamanı aşkar olunan və iş üçün əhəmiyyətli olan hallar və faktlar
- ( ) yalnız ekspert tərəfindən aparılan araşdırma
- ( ) yalnız ekspert tərəfindən qoyulan suallara əsaslandırılmış cavablar

226 Nümunə kimi götürülmüş əşyalar istehlak xassələrini itirdikdə onların dəyəri kim tərəfindən ödənilir?

- nümunə kimi əşyaları götürmüş vergi orqanının əməkdaşının şəxsi vəsaiti hesabına
- vergi orqanı tərəfindən ödənilir
- ödənilmir
- vergi ödəyicisi tərəfindən ödənilir
- yerli maliyyə idarəsi tərəfindən ödənilir

227 Səyyar vergi yoxlamasını bilavasitə həyata keçirən vergi orqanının vəzifəli şəxsinə tələb olunan sənədlər vergi ödəyicisi tərəfindən qanunla müəyyən olunmuş müddətdə təqdim edilmədikdə və ya həmin sənədlərin onda olmaması vergi ödəyicisi tərəfindən bildirildikdə, yoxlamanı həyata keçirən vergi orqanının vəzifəli şəxsləri və vergi ödəyicisi tərəfindən imzalanan hansı sənəd tərtib edilir?

- tələbnamə tərtib edilir
- akt tərtib edilir
- arayış tərtib edilir
- vergi orqanının rəhbərinin adına məruzə hazırlanır
- protokol tərtib edilir

228 Bilavasitə səyyar vergi yoxlamasını keçirən vergi orqanının vəzifəli şəxslərinə vergi ödəyicisinin sahibkarlıq fəaliyyətini həyata keçirmək üçün istifadə etdiyi ərazilərə və ya binalara [yaşayış binaları [sahələri] istisna olmaqla] daxil olmağa icazə verilmədikdə, yoxlamanı keçirən vergi orqanının vəzifəli şəxsləri tərəfindən hansı sənəd tərtib edilir?

- tələbnamə tərtib edilir
- akt tərtib edilir
- arayış tərtib edilir
- vergi orqanının rəhbərinin adına məruzə hazırlanır
- protokol tərtib edilir

229 Vergi orqanı kameral yoxlamanın keçirilməsi üçün müəyyən edilmiş qaydalara riayət etmədikdə, səyyar vergi yoxlaması keçirilən zaman yoxlamanın keçirildiyi vaxta qədər yol verdiyi və kameral yoxlama ilə müəyyən edilə bilən səhvləri vergi ödəyicisi hansı müddət ərzində düzəltmək hüququ vardır?

- düzəliş etmək hüququ yoxdur
- 30 gün
- 20 gün
- 10 gün
- 45 gün

230 Kameral vergi yoxlaması zamanı vergi bəyannaməsində vergilərin düzgün hesablanmaması [vergi məbləğinin az və ya artıq göstərilməsi] aşkar edildikdə, vergi ödəyicisinə neçə gün müddətində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi formada vergilərin hesablanmasına dair bildiriş göndərilir?

- dərhal
- 5 gün
- 15 gün
- 10 gün
- 7 gün

231 Səyyar vergi yoxlamasının materiallarına baxılmanın nəticələri üzrə vergi orqanının rəhbəri [rəhbərin müavini] neçə gün müddətində qərar çıxarır?

- 30 gün
- 10 gün
- 15 gün
- 5 gün
- 20 gün

232 Vergi yoxlamaları zamanı eyni şəxs vergi orqanları tərəfindən vergi ili ərzində neçə dəfədən artıq müşahidəçi kimi dəvət oluna bilməz?

- mәhdudiyyәt nәzәrdә tutulmamışdır
- 1 dәfәdәn
- 4 dәfәdәn
- 3 dәfәdәn
- 2 dәfәdәn

233 Sәyyar vergi yoxlaması zamanı müşahidәçi kimi kimlәrin iştirakına yol verilmir?

- sahibkarlıq fәaliyyәti ilә mәşğul olan vәtәndaşların
- vergi orqanlarının vәzifәli şәxslәrinin
- hüquq-mühafizә orqanı işçilәrinin
- әdliyyә orqanlarının әmәkdaşlarının
- maliyyә orqanlarının vәzifәli şәxslәrinin

234 Sәyyar vergi yoxlaması zamanı mütәxәssis hansı sәnәd әsasında cәlb edilir?

- tәlәbnamә әsasında
- müqavilә әsasında
- mәhkәmәnin qәrarı әsasında
- göndәriş әsasında
- mütәxәssisin işlәdiyi tәşkilatın rәhbәrinin tapşırığı әsasında

235 Sәyyar vergi yoxlaması zamanı mütәxәssis hansı orqanın qәrarı әsasında dәvәt olunur?

- әdliyyә orqanının
- sәyyar vergi yoxlamasını hәyata keçirәn vergi orqanının
- yuxarı vergi orqanının
- mәhkәmәnin
- Nazirlәr Kabinetinin

236 Sәnәdlәrin vә әşyaların nümunә kimi götürülmәsi barәdә hansı sәnәd tәrtib olunur?

- arayış
- protokol
- akt
- heç bir sәnәd tәrtib olunmur
- bildiriş

237 Sәyyar vergi yoxlaması zamanı vergilәrin hesablanması üçün zәruri olmayan sәnәdlәrin vә nümunә kimi әşyaların hansı vaxtlarda götürülmәsinә yol verilmir?

- vergi ödәyicisinin iş vaxtı
- zәruri olmayan sәnәdlәrin vә nümunә kimi әşyaların götürülmәsi qadağandır.
- gecә vaxtı [axşam saat 22.00-dan sәhәr saat 8.00-dәk olan müddәtә]
- saat 13.00-dan saat 14.00-dәk olan müddәtә
- mühasib mәşğul olduğu müddәtdә

238 Sәyyar vergi yoxlamasını keçirәn vergi orqanının vәzifәli şәxsi yoxlama üçün zәruri olan sәnәdlәri vergi ödәyicisindәn hansı qanunvericilik aktı ilә müәyyәn edilmiş qaydada tәlәb edә bilәr?

- Mülki Prosessual Mәcәllә
- Vergi Mәcәllәsi ilә
- Cinayәt Mәcәllәsi ilә
- Mülki Mәcәllә ilә
- Gömrük Mәcәllәsi ilә

239 Sәyyar vergi yoxlamasını keçirәn vergi orqanının vәzifәli şәxsi yoxlama üçün zәruri olan sәnәdlәri vergi ödәyicisindәn müәyyәn edilmiş qaydada tәlәb edәrsә, sәnәdlәrin verilmәsi barәsindә tәlәb yönәldilәn şәxs hәmin sәnәdlәri neçә gün müddәtindә vergi orqanına tәqdim etmәlidir?

- 30 gün
- 5 gün
- 7 gün
- 10 gün
- 15 gün

240 Vergi yoxlaması aktının bir nüsxəsi vergi ödəyicisinə [onun səlahiyyətli nümayəndəsinə] verilmə tarixini təsdiq edən üsulla aktın tərtib edildiyi tarixdən sonra neçə gündən gec olmayaraq verilir və ya göndərilir?

- dərhal
- 5 gündən
- 15 gündən
- 10 gündən
- məhdudiyyət qoyulmur

241 Vergi yoxlaması aktının forması və onun tərtib edilməsinə dair tələblər hansı orqan tərəfindən müəyyən edilmişdir?

- Ədliyyə Nazirliyi
- Vergilər Nazirliyi
- Nazirlər Kabineti
- Maliyyə Nazirliyi
- İqtisadi İnkişaf Nazirliyi

242 Səyyar vergi yoxlamasının nəticələri hansı sənədlə rəsmiləşdirilir?

- vergi yoxlaması protokolu ilə
- vergi yoxlaması aktı ilə
- bildirişlə
- arayışla
- rəsmiləşdirilmir

243 Səyyar vergi yoxlaması zamanı inventarizasiyanın aparılması qaydaları hansı orqan tərəfindən müəyyən edilmişdir?

- Maliyyə nazirliyi
- Nazirlər Kabineti
- Vergilər Nazirliyi
- Milli Məclis
- İqtisadi İnkişaf Nazirliyi

244 Səyyar vergi yoxlaması zamanı inventarizasiya hansı orqanın əsaslandırılmış qərarı ilə aparılır?

- nazirlər kabinetinin
- vergi orqanının
- prokurorluğun
- məhkəmənin
- maliyyə orqanının

245 Növbəti səyyar vergi yoxlaması ildə neçə dəfədən çox olmayaraq keçirilir?

- belə bir məhdudiyyət nəzərdə tutulmuşdur
- 1 dəfədən
- 2 dəfədən
- 3 dəfədən
- 2 ildən bir

246 Yuxarı vergi orqanının əsaslandırılmış qərarına əsasən müəyyən hallarda səyyar vergi yoxlamasının nəticələri üzrə aktın tərtibi müddəti neçə gündən çox olmayan müddətdə uzadıla bilər?

- 90 gündən
- 30 gündən
- 20 gündən
- 60 gündən
- 15 gündən

247 Müstəsna hallarda yuxarı vergi orqanının qərarına əsasən səyyar vergi yoxlamasının keçirilməsi müddəti neçə günə qədər artırıla bilər?

- 60 günədək
- 90 günədək
- 30 günədək
- 60 günədək
- 31 günədək

248 Növbəti səyyar vergi yoxlaması neçə gündən artıq davam edə bilməz?

- 15 gün
- 30 gün
- 20 gün
- 31 gün
- məhdudiyyət yoxdur

249 Səyyar vergi yoxlaması hansı orqanın qərarı əsasında keçirilir?

- ədliyyə orqanlarının
- vergi orqanının
- vergi və maliyyə orqanlarının
- maliyyə orqanlarının
- dövlət xəzinədarlıq və statistika orqanlarının

250 Səyyar vergi yoxlamasının neçə forması vardır?

- 3.0
- 2.0
- 4.0
- 1.0
- 5.0

251 Növbədənkənar səyyar vergi yoxlaması keçirildikdə, vergi orqanı tərəfindən vergi ödəyicisinə vergi yoxlamasının başlanmasından azı neçə gün əvvəl yazılı bildiriş göndərilir?

- 30 gün
- bildiriş göndərilmir
- 15 gün
- 10 gün
- 5 gün

252 Hansı hallarda xronometraj metodu ilə sonuncu müşahidənin nəticələri vergilərin hesablanması üçün əsas götürülə bilər?

- yuxarı vergi orqanı xronometraj metodu ilə sonuncu müşahidənin nəticələrini ləğv etmədikdə
- vergi ödəyicisindən xronometraj metodu ilə yeni müşahidə keçirilməsi barədə müraciət daxil olmadıqda
- heç vaxt əsas götürülə bilməz
- həmişə əsas götürülür
- vergi ödəyicisindən xronometraj metodu ilə yeni müşahidə keçirilməsi barədə müraciət daxil olduqda

253 Kameral yoxlama zamanı vergi bəyannaməsində vergilərin düzgün hesablanmaması [vergi məbləğinin az və ya artıq göstərilməsi] aşkar edildikdə, vergi ödəyicisinə göndərilən bildirişdə vergilərin hesablanmasına

dair məlumatdan başqa daha hansı məlumatlar göstərilməlidir?

- yalnız Vergi Məcəlləsinə uyğun olaraq vergi ödəyicisinin şikayət etmək hüququ
- hesablamanın səbəbləri və Vergi Məcəlləsinə uyğun olaraq vergi ödəyicisinin
- yalnız vergi ödəyicisinin hüquqları
- vergi ödəyicisinin və vergi orqanının hüquqları
- heç bir əlavə məlumat göstərilmir

254 Kameral yoxlama aparmaq üçün vergi ödəyicisindən təqdim olunmuş bəyannamə ilə bağlı sənədlərdə olan məlumatlar arasında ziddiyyət və ya səhv aşkar edildikdə vergi orqanı hansı tədbirləri görə bilər?

- vergi ödəyicisinin fəaliyyətinin dayandırılması üçün məhkəməyə müraciət edə bilər
- vergi ödəyicisindən əlavə məlumat, sənəd və izahat tələb edə bilər
- heç bir tədbir görmək hüququ yoxdur
- dərhal maliyyə sanksiyası tətbiq edilir
- dərhal növbədənkənar səyyar vergi yoxlaması keçirilməsinə başlanıla bilər

255 Kameral vergi yoxlaması vergi ödəyicisi tərəfindən verginin hesablanması və ödənilməsi üçün əsas olan sənədlərin vergi orqanına təqdim edildiyi gündən neçə gün müddətində keçirilir?

- 40 gün
- 10 gün
- 15 gün
- 30 gün
- 20 gün

256 Kameral vergi yoxlaması hansı müddət ərzində həyata keçirilir?

- sənədlərin vergi orqanına təqdim edildiyi gündən 10 gün müddətində
- vergi bəyannaməsinin verilməsi üçün nəzərdə tutulmuş müddətdən sonra 20 gün müddətində
- vergi bəyannaməsinin verilməsi üçün nəzərdə tutulmuş müddətdən sonra 30 gün müddətində
- sənədlərin vergi orqanına təqdim edildiyi gündən 30 gün müddətində
- sənədlərin vergi orqanına təqdim edildiyi gündən 20 gün müddətində

257 Kameral vergi yoxlaması harada keçirilir?

- banklar və ya kredit təşkilatlarından alınmış məlumatlar əsasında həmin təşkilatlarda
- vergi ödəyicisinin obyektində
- yoxlamanı keçirən əməkdaşın istəyi ilə istənilən yerdə
- məlumat alındığı mənbədə
- yerlərə getmədən vergi orqanında

258 Vergi orqanları tərəfindən keçirilən vergi yoxlamaları hansı formalarda ola bilər?

- operativ vergi nəzarəti və kameral vergi yoxlaması
- səyyar vergi yoxlaması və operativ vergi nəzarəti
- operativ vergi nəzarəti və xronometraj metodu ilə müşahidə
- səyyar və kameral vergi yoxlamaları, operativ vergi nəzarəti
- səyyar və kameral vergi yoxlamaları

259 Xammalın, materialların, yarımfabrikatların, hazır məhsulların və digər sərvətlərin, habelə pul vəsaitinin 1000 manatdan çox olan məbləğdə uçotdan gizlədilməsinə və ya uçota alınmamasına il ərzində təkrar yol verildikdə vergi ödəyicisinə nə qədər maliyyə sanksiyası tətbiq edilir?

- gizlədilmiş və ya uçota alınmamış sərvətlərin və ya vəsaitin ümumi məbləğinin 100 manatdan çox olan hissəsinə 5 faizi miqdarında
- gizlədilmiş və ya uçota alınmamış sərvətlərin və ya vəsaitin ümumi məbləğinin 1000 manatdan çox olan hissəsinə 10 faizi miqdarında
- gizlədilmiş və ya uçota alınmamış sərvətlərin və ya vəsaitin ümumi məbləğinin 1000 manatdan az olan hissəsinə 10 faizi miqdarında

- ◯ gizlədilmiş və ya uçota alınmamış sərvətlərin və ya vəsaitin ümumi məbləğinin 1000 manatdan çox olan hissəsinə 10 faizi miqdarında
- ◯ gizlədilmiş və ya uçota alınmamış sərvətlərin və ya vəsaitin 1000 manatının 10 faizi miqdarında

260 Xammalın, materialların, yarımfabrikatların, hazır məhsulların və digər sərvətlərin, habelə pul vəsaitinin 1000 manatdan çox olan məbləğdə uçotdan gizlədilməsinə və ya uçota alınmamasına görə vergi ödəyicisinə nə qədər maliyyə sanksiyası tətbiq edilir?

- ◯ gizlədilmiş və ya uçota alınmamış sərvətlərin və ya vəsaitin ümumi məbləğinin 100 manatdan çox olan hissəsinə 5 faizi miqdarında
- ◉ gizlədilmiş və ya uçota alınmamış sərvətlərin və ya vəsaitin ümumi məbləğinin 1000 manatdan çox olan hissəsinə 5 faizi miqdarında
- ◯ gizlədilmiş və ya uçota alınmamış sərvətlərin və ya vəsaitin tam məbləğinin 3 faizi miqdarında
- ◯ gizlədilmiş və ya uçota alınmamış sərvətlərin və ya vəsaitin ümumi məbləğinin 1000 manatdan az olan hissəsinin 5 faizi miqdarında
- ◯ gizlədilmiş və ya uçota alınmamış sərvətlərin və ya vəsaitin tam məbləğinin 5 faizi miqdarında

261 Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada vergilər üzrə borcların və faizlərin, tətbiq edilmiş maliyyə sanksiyalarının dövlət büdcəsinə alınması üçün banka və ya digər kredit təşkilatına sərəncamın verildiyi tarixdən vergi ödəyicisi tərəfindən onun kassasından, Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş hesabdan pul vəsaitinin silinməsi növbəliliyi pozulmaqla, nağd qaydada məxaric əməliyyatları aparıldıqda – aparılmış məxaric əməliyyatlarının neçə faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir?

- ◯ 60 faizi
- ◉ 50 faizi
- ◯ 25 faizi
- ◯ 40 faizi
- ◯ 100 faizi

262 Vergi Məcəlləsində göstərilən müddətdə vergi orqanında uçota alınmaq üçün və ya Məcəllədə göstərilən müddətdə olduğu yer, yaxud yaşadığı yerin dəyişməsi barədə ərizənin verilməməsinə, həmçinin digər uçot məlumatlarında [vergi ödəyicisinin vergi uçotuna alınma haqqında ərizədə qeyd olunan rekvizitlər] dəyişiklik haqqında məlumatın təqdim edilməməsinə görə, habelə Vergi Məcəlləsində nəzərdə tutulmuş "Fərqlənmə nişanı" olmadan avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və ya yük daşınmasına görə hansı miqdarında maliyyə sanksiyası tətbiq edilir?

- ◯ 100 manat
- ◉ 40 manat
- ◯ 50 manat
- ◯ 20 manat
- ◯ 25 manat

263 Verginin [o cümlədən ödəmə mənbəyində verginin] hesabatda göstərilən məbləği verginin hesabatda göstərilməli olan məbləğinə nisbətən azaldılmışdırsa, habelə büdcəyə çatası vergi məbləği hesabat təqdim etməməklə yayındırılmışdırsa, vergi ödəyicisinə azaldılmış və ya yayındırılmış vergi məbləğinin [kameral vergi yoxlaması nəticəsində hesablanmış əlavə vergi məbləği istisna olmaqla] neçə faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir?

- ◯ 60 faizi
- ◉ 50 faizi
- ◯ 40 faizi
- ◯ 20 faizi
- ◯ 100 faizi

264 Vergi Məcəlləsi ilə müəyyən edilən şəxsin təqsirini istisna edən hallar olduqda, şəxs vergi qanunvericiliyi ilə bağlı hüquq pozuntusuna görə məsuliyyət daşıyırmı?

- ◯ bu vergi orqanı tərəfindən müəyyən edilir
- ◉ Vergi Məcəlləsi ilə müəyyən edilən faizlərin ödənilməsi istisna olmaqla məsuliyyət daşımır

- bütün hallarda məsuliyyət daşıyır
- heç bir halda məsuliyyət daşımır
- Vergi Məcəlləsi ilə müəyyən edilən maliyyə sanksiyalarının və faizlərin ödənilməsi istisna olmaqla məsuliyyət daşımır

265 Hansı hal vergi qanunvericiliyinin pozulmasında şəxsin təqsirini istisna edir?

- vergi qanunvericiliyi ilə bağlı hüquq pozuntusunun qarşısı alına bilən hadisələr nəticəsində törədilməsi
- vergi orqanlarının qərarlarına yenidən baxıldıqda vergi ödəyicisinin hərəkətləri üçün hüquqi əsasların olması aşkar edildikdə
- vergi ödəyicisi fəaliyyət ünvanını dəyişdikdə
- vergi orqanının vəzifəli şəxsinin təşəbbüsü olduqda
- vergi ödəyicisinin xahişi olduqda

266 Aşağıdakılardan hansılar vergi qanunvericiliyinin pozulmasında şəxsin təqsirini istisna edən hallara aiddir? 1. vergi ödəyicisi və ya vergi agenti tərəfindən vergi orqanının və ya digər səlahiyyətli dövlət orqanının, yaxud onların vəzifəli şəxslərinin öz səlahiyyətləri daxilində verdikləri yazılı göstərişlərinin və ya izahatlarının yerinə yetirilməsi; 2. vergi qanunvericiliyi ilə bağlı hüquq pozuntusunun qarşısı alına bilən hadisələr nəticəsində törədilməsi; 3. hər hansı vergilər, o cümlədən vergi agentləri tərəfindən ödənilən vergilər üzrə artıq ödənilmiş məbləğlərin hesabına digər vergilər üzrə borcların nəzərə alınması; 4. vergilərin düzgün hesablanmaması və vergi öhdəliklərinin düzgün yerinə yetirilməməsi ilə bağlı vergi qanunvericiliyinin pozulmasının vergi orqanının yoxlamasına qədərki dövrdə vergi ödəyicisinin özü tərəfindən aradan qaldırılması.

- 1, 2
- 1, 3, 4
- 1, 2, 3
- 2, 3, 4
- 1, 2, 4

267 Hansı hal vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb olunmanı istisna edir?

- vergi qanunvericiliyi ilə bağlı hüquq pozuntusunda şəxsin təqsirinin olmaması
- vergi ödəyicisinin xahişi olduqda
- vergi ödəyicisinin vəzifəli şəxsinin təşəbbüsü olduqda
- vergi ödəyicisi fəaliyyət ünvanını dəyişdikdə
- vergi orqanının vəzifəli şəxsinin təşəbbüsü olduqda

268 Vergi ödəyicisinin və ya vergi agentinin vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb edilməsi onları aşağıdakı hansı məsələlərdən azad etmir? 1. yalnız hesablanmış faizlərin ödənilməsindən; 2. vergi öhdəliklərinin yerinə yetirilməsindən; 3. vergi orqanlarının vəzifəli şəxslərinin qanuni tələblərinin yerinə yetirilməsindən; 4. yalnız tətbiq edilmiş maliyyə sanksiyalarından.

- 1, 4
- 2, 3
- 3, 4
- 1, 3
- 1, 2

269 Vergi qanunvericiliyinin pozulması halları nəzərdən keçirildikdə aşağıdakı hansı məsələlər müəyyən edilməlidir? 1. onun bilərəkdən və ya ehtiyatsızlıq nəticəsində törədilməsi; 2. inzibati məsuliyyətin tətbiq edilməsi üçün təqsirkar şəxsin müəyyən yaşa çatması; 3. vergi ödəyicisi olan fiziki şəxsin sağlamlıq vəziyyəti; 4. yüngülləşdirici və ya ağırlaşdırıcı hallar; 5. qanun pozuntusunun qanunvericilikdə ziddiyyətli məqamların olması səbəbindən törədilməsi.

- 1, 2, 5
- 1, 2, 4
- 3, 4, 5
- 1, 3, 5

- 2, 3, 4

270 Vergi ödəyicisinin və vergi agentinin hansı sahələrdə yol verdiyi səhvləri müstəqil düzəltmək hüququ vardır? 1. istənilən səhvləri; 2. vergitutma obyektinin uçotunda; 3. vergilərin ödənilməsində; 4. vergilərin hesablanmasında; 5. yol verilən səhvlərin müstəqil düzəldilməsi qadağandır.

- 1, 2, 5
- 2, 3, 4
- 3, 4, 5
- 1, 3, 5
- 1, 2, 4

271 Vergi orqanlarının və ya onların vəzifəli şəxslərinin qanunsuz hərəkətləri ilə vergi yoxlaması keçirildikdə

- buraxılmış fayda [əldə edilməyən gəlir] də daxil olmaqla vurulan ziyanın 2 mıcli həcmdə vergi ödəyicisinə ödənilməlidir
- buraxılmış fayda [əldə edilməyən gəlir] də daxil olmaqla vurulan ziyan tam həcmdə vergi ödəyicisinə ödənilməlidir
- buraxılmış fayda [əldə edilməyən gəlir] istisna olmaqla vurulan ziyan tam həcmdə vergi ödəyicisinə ödənilməlidir
- buraxılmış fayda [əldə edilməyən gəlir] də daxil olmaqla vurulan ziyan qismən vergi ödəyicisinə ödənilməlidir
- buraxılmış fayda [əldə edilməyən gəlir] istisna olmaqla vurulan ziyan qismən vergi ödəyicisinə ödənilməlidir

272 Nəzarət-kassa aparatının çekində aşağıdakı hansı məlumatlar olmalıdır? 1. nəzarət-kassa aparatının inventar nömrəsi; 2. gün ərzində vurulmuş çeklərin sayı və nömrəsi; 3. nəzarət-kassa aparatının markası və zavod nömrəsi; 4. vergi ödəyicisinin telefon və ya faks nömrəsi; 5. vergi ödəyicisinin adı.

- 1, 4, 5
- 2; 3; 5
- 1; 2; 5
- 1; 3; 4
- 1; 2; 3

273 Nəzarət-kassa aparatının çekində aşağıdakı hansı məlumatlar olmalıdır? 1. vergi ödəyicisinin adı; 2. vergi ödəyicisinin VÖEN-i; 3. vergi ödəyicisinin elektron imzası; 4. vergi ödəyicisinin fəaliyyət növü; 5. obyektin adı və yerləşdiyi ünvan.

- 1, 3, 5
- 1; 2; 5
- 1; 3; 4
- 1; 2; 3
- 1; 4; 5

274 Operativ vergi nəzarətini həyata keçirən vergi orqanının vəzifəli şəxsləri tərəfindən öz səlahiyyətləri çərçivəsində aşağıdakı hansı məsələlər Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada aparılır? 1. vergi ödəyicilərinin ərazilərinə və ya binalarına [yaşayış binaları [sahələri] istisna olmaqla] daxil olması; 2. vergi ödəyicilərinin ərazilərinə, binalarına [yaşayış binaları [sahələri] istisna olmaqla], habelə sənədlərinə və əşyalarına baxış keçirilməsi; 3. sənədlərin tələb edilməsi, sənədlərin və nümunə kimi əşyaların götürülməsi; 4. ekspert cəlb edilməsi, mütəxəssis, tərcüməçi və müşahidəçi dəvət edilməsi; 5. aksiz markası ilə markalanmalı olan markalanmamış və ya saxta aksiz markası ilə markalanmış malların siyahıya alınması.

- yalnız 1, 4, 5
- 1, 2, 3, 4, 5
- yalnız 1, 3, 4, 5
- yalnız 1, 3, 5
- yalnız 1, 2, 4

275 Operativ vergi nəzarətinin həyata kecirilməsi ücün vergi orqanının əsaslandırılmış qərarında aşağıdakı hansı məlumatlar göstərilməlidir? 1. vergi ödəyicisinin yerləşdiyi ərazi; 2. operativ vergi nəzarəti ilə əhatə

olunmalı olan məsələ [məsələlər]; 3. operativ vergi nəzarətinin müddəti və operativ vergi nəzarətini həyata keçirən vergi orqanının vəzifəli şəxsinin [şəxslərinin] adları; 4. vergi orqanının vəzifəli şəxsinin [şəxslərinin] pasport məlumatları; 5. vergi ödəyicilərinin yaşadığı ünvan.

- 1, 5
- 1; 2; 3
- 2; 4; 5
- 1; 3; 4
- 3; 5

276 Operativ vergi nəzarətinin həyata kecirilməsi ücün aşağıdakılardan hansılar əsas götürülə bilər? 1. vergi orqanı tərəfindən kecirilən səyyar vergi yoxlaması zamanı aşkar edilmiş faktlar; 2. vergi orqanları tərəfindən mənbəyi bəlli mənbələrdən əldə edilən məlumatlar; 3. vergi orqanları tərəfindən mənbəyinin bəlli olub olmamasından asılı olmayaraq əldə edilən məlumatlar; 4. sahibkarlıq fəaliyyəti ilə məşğul olmayan fiziki şəxslər tərəfindən qanunvericiliyin pozulması barədə məlumatlar; 5. vergi ödəyicisi tərəfindən vergi qanunvericiliyinin pozulması hallarının aradan qaldırılması barədə vergi orqanlarının tələblərinin, Vergi Məcəlləsi ilə müəyyən edilmiş müddətdə yerinə yetirilməməsi.

- 2, 4, 5
- 1; 2; 5
- 2; 3; 4
- 1; 3; 5
- 1; 4; 5

277 Operativ vergi nəzarəti aşağıdakı hansı məsələləri əhatə edən vergi nəzarəti formasıdır? 1. "Fərqlənmə nişanı"nı almayan vergi ödəyicilərinin aşkar edilməsi; 2. əhali ilə pul hesablaşmalarının aparılması qaydalarına riayət olunması; 3. qanunvericiliklə müəyyən edilmiş qaydalar pozulmaqla valyuta sərvətlərinin ödəniş vasitəsi kimi qəbul edilməsi faktlarının aşkar edilməsi; 4. valyuta sərvətlərinin ticarət, iaşə və xidmət müəssisələrində qanunvericiliklə müəyyən edilmiş qaydalarda istifadəsinə lisenziyanın verilməsini təmin edilməsi; 5. xüsusi razılıq [lisenziya] tələb olunan fəaliyyət növləri ilə belə razılıq [lisenziya] olmadan məşğul olan şəxslərin aşkar edilməsi.

- 1, 4, 5
- 1; 2; 3; 5
- 2; 3; 4
- 1; 2; 4
- 4; 5

278 Sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki və hüquqi şəxslərdə həyata keçirilən operativ vergi nəzarəti hansı məsələləri əhatə edir? 1. müəyyən edilmiş qaydada və hallarda vergi orqanlarında uçota durmayan və ya «Fərqlənmə nişanı» almayan vergi ödəyicilərinin aşkar edilməsi; 2. əhali ilə pul hesablaşmalarının aparılması qaydalarına riayət olunması; 3. vergi ödəyicilərinin vergilərinin düzgün hesablanması; 4. xüsusi razılıq [lisenziya] tələb olunan fəaliyyət növləri ilə belə razılıq [lisenziya] olmadan məşğul olan şəxslərin aşkar edilməsi; 5. vergi ödəyiciləri tərəfindən təqdim olunmalı olan bəyannamələrin vaxtında təqdim olunması.

- 1, 4, 5
- 1, 2, 4
- 3, 4, 5
- 1, 2, 3
- 1, 3, 5

279 Vergi ödəyicisinin və ya başqa borclu şəxsin vergi orqanının qərarlarından [aktlarından], vergi orqanının vəzifəli şəxslərinin hərəkətlərindən [hərəkətsizliyindən] şikayətinə yuxarı vergi orqanı və ya onun vəzifəli şəxsi tərəfindən həmin şikayət alındığı gündən neçə gün müddətində baxılır?

- 5.0
- 30.0
- 60.0

- 15.0
- 10.0

280 Vergi orqanlarının qərarlarından [aktlarından], habelə vergi orqanlarının vəzifəli şəxslərinin hərəkətlərindən [hərəkətsizliyindən] şikayət yuxarı vergi orqanına [yuxarı vəzifəli şəxsə] vergi ödəyicisi və ya başqa borclu şəxs tərəfindən öz hüquqlarının pozulduğunu bildiyi və ya bilməli olduğu gündən neçə ay müddətində verilir?

- 2 ay
- 9 ay
- 6 ay
- 3 ay
- 1 ay

281 Vergi ödəyicisinin vergilər üzrə borcu olmadıqda, vergi orqanları tərəfindən düzgün tutulmayan vergilərə, maliyyə sanksiyalarına, faizlərə və inzibati cərimələrin məbləğlərinə münasibətdə hansı tədbirlərin görülməsi nəzərdə tutulmuşdur?

- vergi ödəyicisinin müraciətinə əsasən 30 gün müddətində geri qaytarılmalıdır və ya gələcək ödənişlərin hesabına aid edilə bilər
- vergi ödəyicisinin müraciətinə əsasən 45 gün müddətində geri qaytarılmalıdır və ya gələcək ödənişlərin hesabına aid edilə bilər
- vergi orqanının məlumatına əsasən 45 gün müddətində gələcək ödənişlərin hesabına aid edilə bilər
- vergi ödəyicisinin müraciətinə əsasən 60 gün müddətində geri qaytarılmalıdır və ya gələcək ödənişlərin hesabına aid edilə bilər
- vergi orqanının qərarına əsasən 45 gün müddətində geri qaytarılmalıdır

282 Sahibkarlıq fəaliyyətini göstərən hüquqi və fiziki şəxslərin milli və ya xarici valyutada cari və ya digər hesablarında vəsait olduqda, onun vergilərin ödənilməsinə dair tapşırıqlarını, habelə vergilər üzrə borcların, faizlərin və maliyyə sanksiyalarının vergi ödəyicisinin hesabından Mülkü Məcəllədə nəzərdə tutulmuş ödənişlərin növbəliyinə uyğun tutulması haqqında vergi orqanlarının sərəncamlarını icra etmədiyinə görə banklara və bank əməliyyatlarının ayrı-ayrı növlərini həyata keçirən digər kredit təşkilatlarına-icra edilməmiş həmin ödəmə tapşırıqlarında və ya sərəncamlarda göstərilən məbləğin neçə faizi məbləğində maliyyə sanksiyası tətbiq edilir?

- 20.0
- 50.0
- 60.0
- 40.0
- 3.0

283 Vergi və ya cari vergi ödəməsi müəyyən edilmiş müddətdə ödənilmədikdə, Vergi Məcəlləsi ilə müəyyən edilən faiz cari vergi ödənişlərinə münasibətdə hansı dövrə tətbiq edilir?

- bütün ötmüş müddətə, ancaq 2 ildən çox olmamaq şərti ilə
- bütün ötmüş müddətə, ancaq bir ildən çox olmamaq şərti
- bütün ötmüş müddətə, ancaq üç ildən çox olmamaq şərti ilə
- cari vergi ödənişlərinə faiz hesablanmır
- bütün ötmüş müddətə

284 Vergi orqanından şəhadətnamə-dublikat alınmadan sahibkarlıq fəaliyyəti məqsədləri üçün qeyri-rezident bank idarələrində və digər qeyri-rezident kredit təşkilatlarında açılmış hesaba mədaxil edilmiş pul vəsaitinin neçə faizi miqdarında vergi ödəyicisinə maliyyə sanksiyası tətbiq edilir?

- 40 faizi
- 100 faizi
- 50 faizi
- 200 faizi
- 25 faizi

285 Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi [kontraktı] bağlamadan işə götürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin [xidmətlərin] yerinə yetirilməsinə cəlb edilməsi yolu ilə onların gəlirlərinin gizlədilməsinə [azaldılmasına] şərait yaradıldığına görə işəgötürənə hər bir belə şəxs üzrə hansı məbləğdə maliyyə sanksiyası tətbiq edilir?

- ○ 1500 manat
- ● 1000 manat
- ○ 5000 manat
- ○ 100 manat
- ○ 400 manat

286 Plombların vurulması və açılması arasındakı müddətdə nəzarət-ölçü cihazlarının göstəricilərində dəyişikliklərin edilməsinə, texnoloji avadanlıqlardakı plombların zədələnməsinə, istehsal olunmuş məhsulların aksiz markası ilə markalanmamasına, tam uçota alınmamasına, aksiz markaların inventarizasiyasında kənarlaşmalara yol verilməsinə, eləcə də Vergi Məcəllənin müvafiq maddəsinin tələblərini pozmaqla hazır məhsulun istehsal sahəsindən kənara çıxarılmasına görə vergi ödəyicisinə nə qədər maliyyə sanksiyası tətbiq edilir?

- ○ 1000 manat
- ● 5000 manat
- ○ 50000 manat
- ○ 500 manat
- ○ 50 manat

287 Vergi orqanlarında qeydiyyatdan keçirilməmiş və ya texniki tələblərə cavab verməyən nəzarət-kassa aparatlarından istifadə etməklə nağd pul hesablaşmalarının aparılmasına il ərzində üçüncü dəfə yol verildikdə vergi ödəyicisinə nə qədər maliyyə sanksiyası tətbiq edilir?

- ○ 100 manat
- ● 1200 manat
- ○ 400 manat
- ○ 800 manat
- ○ 900 manat

288 Nəzarət-kassa aparatları və ya ciddi hesabat blankları tətbiq edilmədən [nəzarət kassa aparatları quraşdırılmadan, qanunvericiliklə müəyyən edilmiş formalara uyğun ciddi hesabat blankları olmadan və ya nağd ödənilmiş məbləği mədaxil etmədən] nağd pul hesablaşmalarının aparılmasına il ərzində ikinci dəfə yol verildikdə vergi ödəyicisinə nə qədər maliyyə sanksiyası tətbiq edilir?

- ○ 100 manat
- ● 800 manat
- ○ 1200 manat
- ○ 400 manat
- ○ 200 manat

289 Nəzarət-kassa aparatları və ya ciddi hesabat blankları tətbiq edilmədən [nəzarət kassa aparatları quraşdırılmadan, qanunvericiliklə müəyyən edilmiş formalara uyğun ciddi hesabat blankları olmadan və ya nağd ödənilmiş məbləği mədaxil etmədən] nağd pul hesablaşmalarının aparılmasına il ərzində birinci dəfə yol verildikdə vergi ödəyicisinə nə qədər maliyyə sanksiyası tətbiq edilir?

- ○ 100 manat
- ● 400 manat
- ○ 1200 manat
- ○ 800 manat
- ○ 200 manat

290 Vergi ödəyicisi tərəfindən vergi-hesab fakturası üzrə alınmış malların [iş və xidmətlərin] dəyəri ödənilərkən, ƏDV məbləğinin ödənilməməsinə görə vergi ödəyicisinə ödənilməmiş ƏDV məbləğinin neçə faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir?

- 400.0
- 50 faizi
- 25 faizi
- 100 faizi
- 20 faizi

291 ƏDV üzrə qeydiyyat məcburi olduğu halda, qeydiyyat olmadan fəaliyyət göstərilməsinə görə vergi ödəyicisinə ƏDV üzrə qeydiyyat olmadan fəaliyyət göstərdiyi bütün dövr ərzində büdcəyə ödənilməli olan ƏDV məbləğinin neçə faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir

- 100.0
- 20.0
- 40.0
- 50.0
- 10.0

292 Vergi ödəyicisinin şikayətinə baxılan müddət ərzində nəyi ödəməmək hüququ vardır?

- vergi borcunu
- maliyyə sanksiyasını
- inzibati cəriməni
- əlavə hesablanmış vergi məbləğini
- vergini

293 Vergi ödəyicisinin valyuta hesabından vəsait mübahisəsiz qaydada tutulduğu halda bank həmin gün Milli Bankın müəyyən etdiyi rəsmi məzənnə ilə sərəncamda göstərilən məbləğin neçə faizinədək hesabdakı valyuta vəsaitini dondurur?

- 50.0
- 150.0
- 105.0
- 100.0
- 125.0

294 Hüquqi şəxsə, fərdi sahibkara, filiala və nümayəndəliyə, vergi orqanı tərəfindən verilən şəhadətnamə-dublikat olmadan sahibkarlıq fəaliyyətini göstərən hüquqi və fiziki şəxslərə hesablaşma hesabı və digər hesablar açdığına görə banklara və bank əməliyyatlarının ayrı-ayrı növlərini həyata keçirən kredit təşkilatlarına hər açılmış hesab üçün hansı məbləğində maliyyə sanksiyası tətbiq edilir?

- 1000 manat
- 400 manat
- 150 manat
- 50 manat
- 200 manat

295 Müəyyən edilmiş vergi məbləğindən artıq ödənilmiş məbləğ və ya düzgün tutulmayan vergi məbləği ödənildikdə, vergi ödəyicisinin ərizəsinin verildiyi tarixdən həmin məbləğlər geri qaytarılanadək gecikdirilən hər bir gün üçün [ödəmə günü də daxil olmaqla] vergi ödəyicisinə müvafiq məbləğlərin neçə faizi miqdarında faiz ödənilir?

- 1 faizi
- 0,1 faizi
- 0,01 faizi
- 0,05 faizi
- 0,2 faizi

296 Vergi ödəyicisi vergilər, faizlər və maliyyə sanksiyaları üzrə borclarını bildirişdə göstərilən müddət ərzində ödəmədikdə vergi orqanının tələbinə əsasən aktivləri barədə məlumatı 10 gün ərzində təqdim edilmədiyinə görə vergi ödəyicisinə nə qədər maliyyə sanksiyası tətbiq edilir?

- 75 manat
- 100 manat
- 40 manat
- 200 manat
- 50 manat

297 Vergi hesabatını və ya hesabatın əvəzinə nəzərdə tutulmuş arayışı əsas olmadan müəyyən edilən müddətdə təqdim etməyən vergi ödəyicisinə vergi orqanının rəhbərinin [onun müavininin] qərarına əsasən hansı məbləğdə maliyyə sanksiyası tətbiq edilir?

- 100 manat
- 40 manat
- 50 manat
- 25 manat
- 75 manat

298 Vergi qanunvericiliyinin pozulması anından neçə il keçdikdə şəxs həmin qanunvericiliklə bağlı hüquq pozuntusunun törədilməsinə görə məsuliyyətə cəlb edilə bilməz və vergi öhdəlikləri yarana bilməz?

- 5 il
- 3 il
- 2 il
- 1 il
- 4 il

299 Vergi ödəyicisi tərəfindən vergi qanunvericiliyinin bir neçə pozuntusuna yol verildikdə, maliyyə sanksiyaları necə tətbiq edilir?

- vergi orqanının müəyyən etdiyi qaydada
- hər pozuntuya münasibətdə ayrıca tətbiq edilir
- Vergi Məcəlləsində nəzərdə tutulmuş ən aşağı maliyyə sanksiyası tətbiq edilir
- Vergi Məcəlləsində nəzərdə tutulmuş ən yüksək maliyyə sanksiyası tətbiq edilir
- pozuntunun yüksək məbləği götürülür və ona uyğun maliyyə sanksiyası tətbiq edilir

300 Vergi qanunvericiliyinin pozulması malların Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsi ilə bağlı olduqda, həmin işlərə hansı Məcəllə ilə müəyyən edilmiş qaydada baxılır?

- Mülki Məcəllə
- Gömrük Məcəlləsi
- Mülki-Prosessual Məcəlləsi
- Vergi Məcəlləsi
- Cinayət Məcəlləsi

301 Vergi qanunvericiliyinin pozulması faktını təsdiq edən halların və vergi ödəyicisinin təqsirinin sübut edilməsi hansı orqanın üzərinə qoyulur?

- vergi ödəyicisinin
- vergi orqanlarının
- icra hakimiyyəti orqanlarının
- maliyyə orqanlarının
- hüquq-mühafizə orqanlarının

302 Vergi qanunvericiliyinin pozulmasına görə vergi ödəyicilərinə və vergi agentlərinə Vergi Məcəlləsi ilə müəyyən edilmiş hansı məsuliyyət tədbirləri tətbiq edilir?

- maliyyə sanksiyaları və inzibatı cərimələr
- maliyyə sanksiyaları və faizlər
- faizlər və inzibati cərimələr
- maliyyə sanksiyaları, faizlər və inzibati cərimələr

- yalnız maliyyə sanksiyaları və inzibati cərimələr

303 Vergi ödəyiciləri, vergi agentləri və onların nümayəndələri, vergi orqanlarının vəzifəli şəxsləri vergi qanunvericiliyinin pozulmasına görə hansı qanunvericilik aktlarına əsasən məsuliyyət daşıyırlar?

- Mülki Məcəllə
- İnzibati Xətalar, Vergi Məcəlləsi və Azərbaycan Respublikasının digər qanunları ilə
- yalnız Vergi Məcəlləsi
- yalnız İnzibati Xətalar Məcəlləsi
- yalnız İnzibati Xətalar və Vergi Məcəlləsi

304 Vergi orqanları tərəfindən maliyyə sanksiyalarının alınması barədə iddialarına hansı qanunvericilik aktına uyğun olaraq baxılır?

- Cinayət Məcəlləsinə
- Mülki-Prosessual Məcəlləyə
- Vergi Məcəlləsinə
- İnzibati Xətalar Məcəlləsinə
- Mülki Məcəlləyə

305 Vergi orqanlarının vəzifəli şəxslərinin qanuni hərəkətləri nəticəsində vergi ödəyicisinə vurulan ziyan hansı qaydada ödənilir?

- vergi ödəyicisinin tələbi əsasında ödənilir
- qanunla müəyyən edilmiş hallar istisna olmaqla, ödənilmir
- bütün hallarda ödənilir
- heç bir halda ödənilmir
- qanunla müəyyən edilmiş hallar istisna olmaqla, ödənilir

306 Vergilər, faizlər və maliyyə sanksiyaları üzrə ümidsiz borclar vergi orqanları tərəfindən aşağıdakı göstərilən hansı hallarda silinə bilər? 1. Vergi Məcəlləsində müəyyən edilmiş vergi öhdəliyinin yerinə yetirilməsi müddəti qurtardıqda; 2. Vergi Məcəlləsində müəyyən edilmiş əsaslar üzrə vergi öhdəlikləri qüvvədən düşdükdə; 3. vergi ödəyicisi iflasa uğramaq təhlükəsi ilə rastlaşdıqda; 4. vergi ödəyicisinə təbii fəlakət və ya digər qarşısıalınmaz qüvvə nəticəsində böyük həcmdə ziyan dəydikdə.

- 1, 3
- 1, 2
- 3, 4
- 2, 4
- 1, 4

307 Məhkəmənin qərarı əsasında keçirilən hərracda hərracın təşkilatçısı aşağıda göstərilən hansı işləri yerinə yetirməlidir? 1. hərracın gedişində yaranan mübahisənin səbəblərini aradan qaldırmaq mümkün olmadıqda da hərracı baş tutmuş elan edir; 2. hərracın təşkil olunmasını və keçirilməsini təmin edir; 3. satışın baş tutub-tutmadığını təsdiq edir; 4. hərracın gedişində mübahisəli vəziyyət yarandıqda belə hərracı dayandırmadan sonadək davam etdirir; 5. hərracın yekunu barədə protokol tərtib edir və onu təsdiq etmək üçün sifariş verənə təqdim edir.

- 1, 3, 5
- 2, 3, 5
- 1, 3, 4
- 2, 4, 5
- 1, 4, 5

308 Siyahıya alınmış mallar məsul saxlamaya qoyulmaq üçün vergi ödəyicisinə təhvil verildikdə, o, siyahıya alınmış mallarla bağlı hansı hərəkətlərə yol verdiyi təqdirdə qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyət daşıdığı barədə xəbərdar olunmalıdır? 1. təbii fəlakət və digər qarşısı alınmaz qüvvə nəticəsində mallar məhv olunduqda; 2. özgəninkiləşdirdikdə; 3. israf etdikdə; 4. 1-ci və 3-cü bəndlərdə göstərilən hallar eyni zamanda baş verdikdə; 5.gizlədildikdə və ya dəyişdirildikdə.

- 1, 3, 5
- 2, 3, 5
- 1, 3, 4
- 2, 3, 4
- 1, 4, 5

309 Vergi Məcəlləsində başqa hallar nəzərdə tutulmamışdırsa, vergi ödəyicisi vergitutmanın aşağıdakı hansı elementlərini əsas götürərək hesabat dövri üçün ödənilməli olan verginin məbləğini sərbəst surətdə özü hesablayır? 1. vergi bazasını; 2. verginin elastikliyini; 3. verginin miqyasını; 4. vergi dərəcəsini; 5. vergi güzəştlərini.

- 1, 3, 5
- 1, 4, 5
- 3, 4, 5
- 2, 3, 4
- 2, 3, 5

310 Aşağıdakı hansı hallarda vergi orqanları müvəkkil banka yazılı bildiriş göndərməklə həmin bankın xidmət etdiyi hər hansı hüquqi şəxsin və ya fərdi sahibkarın bank hesabı və əməliyyatları barədə qanunvericiliyə uyğun olaraq məlumat almaq hüququna malikdirlər? 1. vergi ödəyicisinin qanunvericiliklə müəyyən edilmiş qaydada gəlirlərinin və xərclərinin uçotunun aparılması aşkar edildikdə; 2. vergi bəyannamələri müəyyən olunmuş müddətdə təqdim edilmədikdə; 3. vergi yoxlamasının aparılması zamanı vergi ödəyicisi tərəfindən vergi orqanlarının vəzifəli şəxslərinə sənədlər təqdim edilmədikdə; 4. vergi orqanlarının vəzifəli şəxslərinə vergi ödəyicisinin ərazilərinə və ya binalarına [yaşayış binaları [sahələri] istisna olmaqla] daxil olmağa icazə verildikdə; 5. mühasibat və hesabat sənədlərinin məhv olunması [itirilməsi] aşkar edildikdə.

- 1, 3, 5
- 2, 3, 5
- 1, 2, 4
- 1, 3, 4
- 1, 4, 5

311 Aşağıda göstərilən hansı hallarda vergi orqanının vergi ödəyicisinin banklar və bank əməliyyatlarının ayrı-ayrı növlərini həyata keçirən kredit təşkilatlarından apardığı əməliyyatlar barədə məlumat almaq hüququ vardır? 1. vergi bəyannamələri müəyyən olunmuş müddətdə təqdim edilmədikdə; 2. gəlirlərin və xərclərin uçotu müəyyən edilmiş qaydada aparılmadıqda; 3. istənilən halda vergi orqanının təşəbbüsü ilə; 4. mühasibat və hesabat sənədlərinin məhv olunması aşkar edildikdə; 5. xronometraj metodu ilə müşahidə aparıldıqda.

- 1, 3, 5
- 1, 2, 4
- 2, 3, 5
- 1, 2, 3
- 2, 4, 5

312 Vergi orqanı tərəfindən vergi hesabatı aşağıdakı hansı hallardan biri olduqda qəbul edilmir? 1. vergi ödəyicisinin eyniləşdirmə nömrəsi göstərilmədikdə və ya səhv göstərildikdə; 2. vergi dövrü əks olunmadıqda; 3. vergi ödəyicisi hesabatı poçt vasitəsilə təqdim etdikdə; 4. vergi ödəyicisi olan fiziki şəxs tərəfindən vergi hesabatı imzalanmadıqda; 5. vergi ödəyicisinin vergi borcu olduqda.

- 1, 3, 5
- 1, 2, 4
- 1, 3, 5
- 1, 2, 3
- 2, 3, 4

313 Aşağıdakı məlumatlardan hansı əlaqəli məlumatlar hesab edilir? 1. vergi ödəyicisinin mülkiyyətində və istifadəsində olan maddi və qeyri-maddi əmlak barədə rəsmi məlumatlar; 2. vergi ödəyicisi tərəfindən vergi orqanına əvvəlki hesabat dövrləri üçün təqdim edilmiş vergi bəyannamələri; 3. vergi orqanının əldə etdiyi

mənbəyi bəlli olmayan hər hansı digər məlumatlar; 4. vergi ödəyicisində aparılmış xronometraj müşahidələrin nəticələri; 5. vergi ödəyicisinin idxal-ixrac əməliyyatları barədə rəsmi məlumatları.

- 1, 3, 5
- 1, 2, 4, 5
- 2, 3, 4, 5
- 1, 3, 4
- 3, 4, 5

314 Aşağıdakı hansı hallarda vergi orqanının ödənilməli olan verginin məbləğini əlaqəli məlumat əsasında hesablamaq hüququ vardır? 1. vergi ödəyicisi tərəfindən mühasibat uçotu aparılmadıqda və ya mühasibat uçotu müəyyən edilmiş qaydada aparılmadıqda; 2. mühasibat və hesabat sənədləri məhv olunduqda [itirildikdə]; 3. səyyar vergi yoxlamasının aparılması zamanı sənədlər müəyyən edilmiş qaydada və müddətdə təqdim edildikdə; 4.vergitutma obyektinin müəyyənləşdirilməsi hər hansı başqa səbəblərdən mümkün olmadıqda; 5. vergi ödəyicisi tərəfindən mühasibat uçotu müəyyən edilmiş qaydalara uyğun aparıldıqda.

- 1, 3, 5
- 1, 2, 4
- 2, 3, 5
- 1, 3, 4
- 3, 4, 5

315 Aşağıdakı hansı hallarda vergi orqanının ödənilməli olan verginin məbləğini əlaqəli məlumatlardan istifadə etməklə hesablamaq hüququ vardır? 1. vergi ödəyicisinin yaşayış binasına [sahəsinə] daxil olmağa icazə verilmədikdə; 2. vergi ödəyicisi verginin hesablanması üçün zəruri olan hesabat məlumatlarını Vergi Məcəlləsi ilə müəyyən edilən müddətdən sonra vergi orqanının xəbərdarlıq etdiyi gündən sonra 5 gün müddətində əsas olmadan təqdim etmədikdə; 3. səyyar vergi yoxlamasının aparılması zamanı sənədlər təqdim edilmədikdə; 4. heç bir halda vergi orqanının ödənilməli olan verginin məbləğini əlaqəli məlumatlardan istifadə etməklə hesablamaq hüququ yoxdur; 5. vergi ödəyicisi mühasibat uçotunu müəyyən edilmiş qaydada aparmadıqda.

- 1, 3, 5
- 2, 3, 5
- 1, 4, 5
- 1, 3, 4
- 3, 4, 5

316 Vergi orqanının vergi ödəyicisinə hesabladığı vergi hesablamalarının səhv olduğunu sübut etmək vəzifəsi kimin üzərinə qoyulur?

- vergi ödəyicisinin
- məhkəmənin
- mütəxəssislərin
- sərbəst auditorun
- yuxarı vergi orqanının

317 Vergi ödəyicisinin vergi hesablamalarının səhv olduğunu sübut etmək vəzifəsi kimin üzərinə qoyulur?

- mütəxəssislərin
- vergi orqanının
- vergi ödəyicisinin
- məhkəmənin
- sərbəst auditorun

318 Satışa çıxarılan əmlakla tanış olduqdan sonra hərracın keçirilməsinə neçə gün qalmış hərraca buraxılmış şəxslər hərracın təşkilatçısına hərracda iştirak edib-etməyəcəkləri barədə öz qərarlarını yazılı surətdə bildirməlidirlər?

- 2 gün
- 5 gün
- 3 gün
- 10 gün
- 1 gün

319 Siyahıya alınmış mallar harada məsul saxlamaya qoyulur?

- vergi orqanının müəyyənləşdirdiyi yerdə
- vergi ödəyicisində və ya onun razılığı ilə vergi orqanının vəzifəli şəxsləri tərəfindən müəyyən edilən yerlərdə
- yalnız vergi ödəyicisində
- istənilər yerdə
- yalnız vergi ödəyicisinin razılığı ilə vergi orqanının vəzifəli şəxsləri tərəfindən müəyyən edilən yerlərdə

320 Vergi Məcəlləsində başqa hallar nəzərdə tutulmamışdırsa, artıq ödənilmiş vergilər, faizlər və maliyyə sanksiyaları digər vergilərin, faizlərin, maliyyə sanksiyalarının və inzibati cərimələr üzrə borcların ödənilməsi hesabına aid edildikdən sonra artıq ödənilmiş qalan məbləğlər vergi ödəyicisinin yazılı ərizəsinə əsasən neçə gün ərzində vergi ödəyicisinə qaytarılır?

- dərhal
- 45 gün
- 60 gün
- 15 gün
- 30 gün

321 Vergilər Nazirliyi rüblər üzrə [dövri olaraq] müddəti uzadılan vergi öhdəliklərinin məbləği barədə hansı icra orqanına məlumat verir?

- Dövlət Statistika Komitəsinə
- Maliyyə Nazirliyinə
- İqtisadi İnkişaf Nazirliyinə
- Nazirlər Kabinetinə
- Dövlət Gömrük Komitəsinə

322 Vergi orqanının səyyar və kameral vergi yoxlamasının nəticələrinə görə hesablanmış vergiləri, faizləri və maliyyə sanksiyalarını hesabat dövri qurtardıqdan sonra neçə il ərzində yenidən hesablamaq hüququ vardır?

- 15 il ərzində
- 3 il ərzində
- 5 il ərzində
- 1 il ərzində
- 10 il ərzində

323 Gəlir vergisi və ya mənfəət vergisi üzrə hesabatın verilmə müddəti nə qədər uzadıla bilər

- 1 ilədək
- 1 ayadək
- 6 ayadək
- 3 ayadək
- 9 ayadək

324 Hansı halda gəlir vergisi və ya mənfəət vergisi üzrə vergi hesabatının verilməsi müddəti uzadıla bilər?

- vergi ödəyicisi müraciət etdikdə istənilən vaxt
- vergi ödəyicisi hesabatın verilməsi müddəti başa çatanadək müraciət etdikdə və bu zaman ödənilməli olan verginin məbləğini tamamilə ödədikdə
- vergi ödəyicisi hesabatın verilməsi müddəti keçdikdən sonra müraciət etdikdə və ödənilməli olan vergiləri ödədikdə
- vergi ödəyicisi hesabatın verilməsi müddəti keçdikdən sonra müraciət etdikdə

- vergi ödəyicisi hesabatın verilməsi müddəti başa çatanadək müraciət etdikdə və bu zaman ödənilməli olan vergi məbləği ödənilmədikdə

325 Vergi Məcəlləsində müəyyən edilən hər hansı müddət nə vaxt bitir?

- Vergi Məcəlləsində göstərilən dövrün sonuncu gününün başlanğıcında
- (selected) Vergi Məcəlləsində göstərilən dövrün sonuncu gününün axırında
- Vergi Məcəlləsində göstərilən dövrün sonuncu günündən əvvəlki gün
- Vergi Məcəlləsində göstərilən dövrün sonuncu günündən sonrakı gün
- Vergi Məcəlləsində göstərilən dövrün sonuncu gününün əvvəlində

